RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 53 (8932) CÜMƏ, 11 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Ankaranın Esenboğa Hava Limanında qarşılanma





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə martın 10-da Türkiyəyə işgüzar səfərə gedib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz və digər rəsmi şəxslər qarşıladılar.

## Səfər başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri martın 10-da başa çatıb.

# Azərbaycanla Türkiyənin müttəfiqlik əlaqələri inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.**

*Ardı 2-ci səh.*

## Birinci vitse-prezident Mehriban Əliyeva Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşüb



*Bax: səh. 2*

## İqtisadi və siyasi müstəqilliyin uğur formulu

Müstəqilliyinin bərpasından ötən 31 ildə heç vaxt indiki kimi güclü, qüdrətli və istiqrarlı olmayan Azərbaycan bu gün dünya düzənində özünəməxsus yer tutan ölkələrdən biridir.

Bunun yeganə səbəbi isə Prezident İlham Əliyevin tam müstəqil siyasət yürütməsi, ölkənin iqtisadi qüdrətinin getdikcə daha da güclənməsidir.

Əgər dünyanın geosiyasi mənzərəsinə nəzər yetirsək görərik ki, bu 31 ildə Azərbaycanın əldə etdiyi uğurları inkişaf etməkdə olan ölkələrin əksəriyyəti bəlkə də heç 50 ildə qazana bilməyiblər.

2022-ci il Azərbaycanın beynəlxalq əlaqələrinin 30-cu ildönümü kimi də tarixə yazılır.



*Bax: səh. 4*

## Avropa Parlamentinin növbəti riyakarlığı

### Qarabağda erməni vandalizmini görməzdən gələn bu korrupsioner qurum Azərbaycana qarşı yenidən təxribata imza atdı

Avropa Parlamentinin korrupsioner bir quruma çevrilməsi barədə yüzlərlə yox, minlərlə fakt göstərmək mümkündür. Müxtəlif siyasi mərkəzlərin aləti rolunu oynayan bu qurum ayrı-ayrı vasitələrlə, o cümlədən insan haqları və demokratiya pərdəsi altında həm də siyasi təxribatlarla məşğuldur. Müxtəlif vaxtlarda onun Azərbaycana qarşı qəbul etdiyi riyakar, tamamilə qərəzli və əsassız sənədlər başqa cür düşünməyə əsas vermir.

*Ardı 3-cü səh.*

## Azərbaycan-Böyük Britaniya əlaqələri yüksək səviyyədə, strateji tərəfdaşlıq zəminində inkişaf edir

### Dost ölkənin şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə də fəaliyyət göstərirlər

Prezident İlham Əliyev bütün səfərlərində, çıxışlarında, keçirdiyi görüşlərdə bunu bir daha deyir, xatırladır, vurğulayır. Ayrı-ayrı ölkələrin həmin ərazilərdə olan nümayəndə heyətləri, jurnalistləri, ən müxtəlif qurumlarının əməkdaşları o vəhşiliyin dəhşətli izlərini öz gözləri ilə görürlər.

Prezident İlham Əliyev bu il martın 9-da Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edərkən də bu, söhbətin əsas mövzularından olub. İndi Azərbaycan işğaldan azad edilmiş ərazilərində daxili imkanlar hesabına, dövlətimizin başçısının dediyi kimi, heç kəsdən bir manat belə istəmədən, kredit götürmədən genişmiqyaslı quruculuq prosesi həyata keçirir. Həmin ərazilərdə ilk növbədə infrastruktur yaradılır, yolların çəkilməsi, elektrik enerjisi təchizatı, minalardan təmizləmə istiqamətində intensiv iş aparılır. Qəbulda Baronessa Emma Nikolsona bu barədə ətraflı məlumat verildi.

*Bax: səh. 5*

## Avropada Azərbaycan qazına tələbat artır



Cənubi Qafqazın lider dövləti sayılan müstəqil Azərbaycan enerji ehtiyatlarını dünya bazarına çıxarmaqla davamlı inkişaf üçün əhəmiyyətli bazis yaradıb, eyni zamanda beynəlxalq münasibətlərdə mühüm aktora çevrilib. Artıq Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı statusuna sahib olub.

Ötən il ölkəmiz “Cənub qaz dəhlizi”nin bir seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Türkiyə, Gürcüstan, İtaliya, Bolqarıstan və Avropa dövlətlərinə 19 milyard kubmetr təbii qaz ixrac edib. TAP layihəsinin tamamlanmasından sonra Azərbaycan Avropa ölkələrinə qaz ixracını daha da artırıb.

*Bax: səh. 4*

# Azərbaycanla Türkiyənin müttəfiqlik əlaqələri inkişaf edir







*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çankaya Köşkündə dövlətimizin başçısını qarşıladı.

Prezidentlər birgə foto çəkdirdilər.

Görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulandı. Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edildi, Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparıldı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığa toxunuldu, bu xüsusda "Cənub qaz dəhlizi"nin uğurla fəaliyyət göstərdiyi qeyd olundu, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edildi, həmçinin İğdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulandı.

Söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı.

Hərbi, hərbi texniki, o cümlədən hərbi təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirildi, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Görüşdə Ukraynadakı hadisələrlə bağlı fikir mübadiləsi aparıldı, Türkiyə və Azərbaycanın, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin tezliklə dayandırılması istiqamətindəki şəxsi səyləri yüksək qiymətləndirildi.

Sonda Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olundu və Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət etdi.

## Birinci vitse-prezident Mehriban Əliyeva Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşüb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 10-da Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə birgə foto çəkdirilib.

Görüşdə Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin bu il qeyd olunduğu məmnunluqla vurğulanıb.

Sonra ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib.



## Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib

Martın 10-da Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının növbəti iclası keçirilib.





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri, AİH-in Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində 2021-ci ildə holdinqin görülən işlər barədə fəaliyyət hesabatı, üç portfel şirkətin - "Azər-Türk Bank" ASC, "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti" və "Təmiz şəhər" ASC-nin fəaliyyətinin diaqnostikasının nəticələri, portfel şirkətlərində Koordinasiya ofislərinin təşkili haqqında və digər cari məsələlər müzakirə edilib.

İclasda holdinqin İdarə Heyətinin sədri Mətin Eynullayevin və baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib. Həmçinin diaqnostikanın nəticələri barədə aidiyyəti portfel şirkətlərin Müşahidə Şurasının sədrinin və şirkət rəhbərlərinin çıxışları ətrafında geniş müzakirələr aparılıb.

## Azərbaycanın xarici işlər naziri rusiyalı həmkarı ilə Ukraynadakı vəziyyəti müzakirə edib

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov martın 10-da Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovla görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı ikitərəfli gündəliyin aktual məsələləri üzrə müzakirələr aparılıb.

Tərəflər Ukraynada mövcud olan vəziyyət, Rusiya və Ukrayna arasında aparılan danışıqlar, məsələnin həlli yolları ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə nazirlər regionda mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası, işğal amilinin aradan qaldırılması ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün imkanların yaranması, kommunikasiya və nəqliyyat xətlərinin açılması, sərhədlərin delimitasiya prosesinə dair məsələlər ətrafında müzakirələr aparıblar.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin Baş katibinə məktubu qurumun rəsmi sənədi kimi yayılıb

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin Baş katibi Antonio Quterreşə işğaldan azad edilmiş Xocavənd rayonunun Edilli kəndi və Füzuli şəhərində kütləvi məzarlıqların aşkar edilməsi barədə məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb.

AZƏRTAC xəbər verir ki, məktubda Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000-dək azərbaycanlının taleyinə aydınlıq gətirilməsi məsələsinə bir daha diqqət çəkilib. Bildirilib ki, şahidlərin ifadələri əsasında aparılmış axtarış-araşdırma tədbirləri nəticəsində Azərbaycanın işğaldan azad edilmiş Xocavənd rayonunun Edilli kəndində və Füzuli şəhəri ərazisində kütləvi məzarlıqlar aşkar edilib. 1990-cı illərdən bəri itkin düşmüş 6 və ya 7 azərbaycanlıya məxsus olduğu ehtimal edilən meyit qalıqları tibbi-genetik müayinədən keçirilməsi məqsədilə tədqiqat qrupu tərəfindən ekshumasiya edilərək toplanılıb. Erməni əsirliyində olmuş Azərbaycan vətəndaşları və hərbçiləri ifadələrində bildiriblər ki, onlarla azərbaycanlının cəsədləri işgəncəyə, təhqirə və qeyri-insani hərəkətlərə məruz qalaraq hərbi yük maşınlarında daşınıb və qeyd olunan ərazidə basdırılıb.

Müvafiq dövlət orqanları şahidlərin verdikləri ifadələr və digər axtarış materialları əsasında təxmin edirlər ki, aşkar olunmuş meyit qalıqları qeyd olunan ərazidə dəfn edilmiş şəxslərin yalnız cüzi bir hissəsini təşkil edir və beləliklə, hazırda digər məzar yerlərinin axtarışı istiqamətində tədbirlər davam etdirilir.

Diqqətə çatdırılıb ki, əsir-girovluqda olmuş azərbaycanlıların məcburi şəkildə daşınması və meyitlərin basdırılması özü-özlüyündə Ermənistan silahlı qüvvələrinin və onların əlaltılarının törətdikləri cinayətlərin qəddarlığından və amansızlığından xəbər verir. Cinayətkarlar əsir-girovluqda olmuş onlarla insanın ölümü ilə nəticələnən qəddar hərəkətlər və işgəncələrlə yanaşı, digər ciddi müharibə cinayətləri də törədiblər ki, bu da münaqişə zamanı cəsədlərin ləyaqətlə dəfn olunması, məzarlarına hörmətlə yanaşılması, müvafiq şəkildə saxlanılması və işarələnməsi ilə bağlı beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulmasıdır.

Vurğulanıb ki, belə faktların artdığı ərəfədə cinayətkarlar hələ də cəzalandırılmayıb, Ermənistan, onun agentləri və əlaltıları tərəfindən törədilmiş müharibə cinayətləri və insanlığa qarşı cinayətlərin araşdırılması istiqamətində hələ də heç bir addım atılmayıb. Narahatlıq doğuran məqam həm də ondan ibarətdir ki, Azərbaycanın bununla bağlı çağırışları və Ermənistan tərəfi ilə, o cümlədən ən yüksək səviyyədə davamlı müzakirələrin aparılmasına baxmayaraq, rəsmi Yerevan məzarların, kütləvi qəbiristanlıqların yerinin müəyyən olunması və ya itkin düşmüş azərbaycanlıların taleyinin aydınlaşdırılması ilə bağlı məsələyə aydınlıq gətirəcək hər hansı informasiyanın təmin olunması ilə bağlı əməkdaşlıq etməkdən boyun qaçırır.

Nazir Ceyhun Bayramov itkin düşən şəxslərin taleyinə aydınlıq gətirilməsinin həm qanunun aliliyi, ədalət, həm də münaqişə sonrası münasibətlərin normallaşmaşı baxımından önəmini nəzərə alaraq beynəlxalq ictimaiyyətin bu məsələdə rolunun vacib xarakter daşıdığını vurğulayıb.

Məktubda, həmçinin 1990-cı illərin əvvəllərində itkin düşmüş minlərlə azərbaycanlının taleyinə aydınlıq gətirilməsi üçün Ermənistanın əlində olan bütün məlumatları verməyə məcbur edilməsinə dair BMT Baş katibinə çağırış edilir.

# *Rati BREQADZE:* "Gürcüstan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir"



Milli Məclisin Sədri Sahibə Qafarova martın 10-da ölkəmizdə səfərdə olan Gürcüstanın ədliyyə naziri Rati Breqadze ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Sahibə Qafarova gürcüstanlı naziri və nümayəndə heyətini salamlayaraq bildirib ki, qonşu və dost ölkələr olan Azərbaycan ilə Gürcüstan arasında münasibətlər çoxəsrlik tarixə malikdir. Müstəqillik dövründə isə bu əlaqələrimiz daha da inkişaf edib və bu il biz diplomatik əlaqələrimizin yaranmasının 30-cu ildönümünü qeyd edəcəyik. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu dostluq münasibətləri bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən illər ərzində Azərbaycan və Gürcüstan arasında imzalanmış sənədlər müxtəlif sahələrdə əməkdaşlığımız üçün möhkəm hüquqi baza yaradır. Bu hüquqi bazanın daha da genişləndirilməsi üçün daha geniş imkanlar var. Bu gün iki ölkənin Ədliyyə nazirlikləri arasında imzalanmış memorandum da əməkdaşlığımızın daha da inkişafına töhfədir.

Sahibə Qafarova həmçinin bildirib ki, Gürcüstan Azərbaycanın həyata keçirdiyi nəhəng beynəlxalq layihələrin fəal iştirakçısıdır.

İki ölkənin parlamentləri arasında münasibətlərdən danışan Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan və Gürcüstan münasibətlərinin inkişafında qanunverici orqanların özünəməxsus rolu var. Parlamentlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda sıx əməkdaşlıq edirlər. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq parlament qurumlarında uğurla əməkdaşlıq edirlər.

Söhbət zamanı Milli Məclisin Sədri ölkəmizin 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük qələbə haqqında məlumat verərək bildirib ki, Azərbaycan Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa edib. Ölkəmiz bununla həm də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini həyata keçirib.

Sahibə Qafarova qeyd edib ki, Ermənistan ərazilərimizi işğal altında saxladığı müddətdə oradakı bütün maddi-mədəni sərvətlərimizi talan edib, şəhərlərimizi və kəndlərimizi dağıdıb. Təsadüfi deyil ki, həmin əraziləri XXI əsrin Xirosiması adlandırırlar. O, həmçinin diqqətə çatdırıb ki, Qarabağ münaqişəsi artıq tarixə qovuşub və hazırda Azərbaycan məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün azad edilmiş əraziləri minalardan təmizləyir, bərpa edir. Burada kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin açılması bütün regionun inkişafına və çiçəklənməsinə böyük töhfə verəcəkdir.

Səmimi görüş üçün təşəkkürünü bildirən Gürcüstanın ədliyyə naziri Rati Breqadze Azərbaycan haqqında təəssüratlarını bölüşüb, belə səfərlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıb. Qarşılıqlı əməkdaşlığın inkişafında parlamentlərin rolunu xüsusi qeyd edən gürcüstanlı nazir qanunverici orqanlar arasındakı sıx münasibətlərin qurulmasına görə təşəkkürünü bildirib. Nazir Gürcüstanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdırıb.

Söhbət zamanı Rati Breqadze iki ölkənin gəncləri arasında əlaqələrin inkişafı, diasporların fəaliyyəti barədə fikirlərini bölüşüb, Azərbaycana sülh və sabitlik arzularını ifadə edib.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Arzu Nağıyev, deputatlardan Əminə Ağazadə, Kamal Cəfərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, ədliyyə nazirinin müavini Toğrul Musayev, Gürcüstanın ölkəmizdəki səfiri Zurab Pataradze və digər rəsmi şəxslər iştirak ediblər.

# Avropa Parlamentinin növbəti riyakarlığı

## Qarabağda erməni vandalizmini görməzdən gələn bu korrupsioner qurum Azərbaycana qarşı yenidən təxribata imza atdı



*Əvvəli 1-ci səh.*

Dünən AP-nin "Dağlıq Qarabağda mədəni irsin məhv edilməsi" barədə qəbul etdiyi qətnamə bu qurumun Azərbaycana qarşı növbəti riyakarlığı oldu. Heç bir əsası olmayan, yalan və saxta iddialara söykənən bu qətnamənin qəbulu ilə AP bir daha təsdiq etdi ki, erməni təəssübkeşi olan siyasi mərkəzlər üçün alət rolunu oynamaqda davam edir. İkinci Qarabağ müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda bütün dünyaya əyan olan erməni vandallığını görməzdən gələn bu qurumun indi erməni yalanlarının və erməni saxtakarlığının müdafiəsinə qalxması onun iyrənc simasını bir daha ortaya qoydu.

Fakt budur ki, Qarabağ və Şərqi Zəngəzurda işğal dövründə ermənilər tərəfindən mədəni irsimiz tamamilə talanıb, dağıdılıb. İşğalçı onu özününküləşdirməyə, bu məqsədlə mənşəyini dəyişdirməyə cəhd göstərib. Ermənilər məscidlərimizi dağıdıblar, müsəlman aləmi üçün müqəddəs sayılan yerlərdə donuz saxlayıblar. Müharibənin başa çatmasından sonra bütün bunlar bütün dünyaya agah oldu. 2020-ci ilin dekabr ayında Zəngilan rayonunda ermənilər tərəfindən dağıdılmış məsciddə olarkən Prezident İlham Əliyev beynəlxalq təşkilatlara səslənərək bu barədə demişdi: "UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl, gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub".

İndiyədək Azərbaycanın bu istiqamətdə çağırışları cavabsız qalıb. Ermənistanın vandalizmi ilə bağlı AP-nin susqunluğu, laqeydliyi onun həm riyakarlığının, həm də islamofob mövqedə dayanmasının təsdiqidir.

İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Dağlıq Qarabağ probleminə son qoyuldu, 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad edildi. Görünən odur ki, ölkəmizin 44 günlük bu müharibədə qazandığı Zəfəri, Ermənistanı döyüş meydanında darmadağın etməsini, güc yolu ilə torpaqlarımızdan qovmasını, bu işğalçı dövləti tarix boyu unuda bilməyəcəyi şəkildə cəzalandırmasını Qərbin bəlli ermənipərəst dairələri hələ də həzm edə bilmirlər.

Həmin siyasi dairələrin yuxusunu ərşə çəkən başqa bir məqam da Azərbaycanın 44 günlük müharibədən sonra regionda və dünyada mövqelərini möhkəmləndirməsi, Ermənistanı üçtərəfli bəyanatların tələblərini yerinə yetirməyə məcbur etməsidir. Ona görə də bu dairələr Azərbaycana qarşı istənilən cılız və riyakar addımı atmağa hazırdırlar. AP-nin qətnaməsi bunu bir daha təsdiq edir.

AP indiyə qədər aldığı sifarişlər əsasında Azərbaycana böhtan atmaqla, qara yaxmaqla məşğul olub. Odur ki, bu qətnamə də bizim üçün adi kağız parçasıdır və qalib Azərbaycana təsir göstərmək iqtidarında deyil.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Narkoloji xidmət və nəzarət haqqında" qanunda dəyişiklik ediləcək

Martın 10-da Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, komitə sədri Əhliman Əmiraslanov iclası açaraq gündəlik barədə məlumat verib. Bildirib ki, Azərbaycan Prezidentinin imzası ilə bir zərfdə Milli Məclisə daxil olmuş beş qanun layihəsi birinci oxunuşda komitənin müzakirəsinə çıxarılıb. Bunlar "Narkoloji xidmət və nəzarət haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" iki qanun layihəsi, həmçinin Cinayət, İnzibati Xətalar və Cinayət Prosessual məcəllələrində dəyişikliklərin edilməsi ilə bağlı daha üç qanun layihəsidir.

Əhliman Əmiraslanov qeyd edib ki, qanun layihələri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə qəbul edilən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"na əsasən hazırlanıb.

Sonra qanun layihələrini təqdim edən Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri Kəmalə Paşayeva bildirib ki, bu 5 qanun layihəsində 2 istiqamət üzrə dəyişikliklər müəyyən edilib. Belə ki, "Narkoloji xidmət və nəzarət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində və "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" qanun layihəsində dəyişikliklər narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə hazırlanıb. Hər iki sənəddə müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslərin, həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların və kadr zabit heyətinə könüllü daxil olanların icbari narkoloji müayinədən keçməsi məsələlərinin hüquqi əsasları müəyyən olunub.

Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi məqsədilə hazırlanıb.

Kəmalə Paşayeva məlumat verib ki, Cinayət Məcəlləsinə təklif edilən dəyişikliklər əsasən narkotik vasitələr hesab olunan bitkilərin satış məqsədi olmadan xeyli, külli miqdarda, xüsusilə külli miqdarda daşınması, əldə edilməsi halları ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi zərurəti ilə bağlı hazırlanıb. Qeyd edib ki, məcəllənin 234.1-ci maddəsinin dispozisiyasından "şəxsi istehlak miqdarından artıq" sözlərinin "xeyli" sözü ilə, 237.1-ci maddənin dispozisiyasında isə "və ya onları toplama" sözlərinin "və ya yetişdirmə" sözü ilə əvəz edilməsi təklif edilib.

Cinayət Məcəlləsinə təklif edilən dəyişikliklər, həmçinin narkotik vasitələri və ya psixotrop maddələri, onların prekursorlarını satış məqsədilə qanunsuz olaraq əldə etmə, saxlama, hazırlama ilə bağlı əməllər külli və xüsusilə külli miqdarda törədildikdə, onlara görə sanksiyaların sərtləşdirilməsini də nəzərdə tutur.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə gəldikdə isə, bildirilib ki, sənəddə satış məqsədi olmadan narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllərin cinayət məsuliyyətinə səbəb olmayan hallarda, yəni az miqdarda törədildikdə inzibati xəta kimi müəyyən edilməsi təklif olunub.

Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) isə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində prosessual normaların təkmilləşdirilməsini nəzərdə tutur.

Qanun layihələrinin müzakirələrində Milli Məclisin deputatları İlham Məmmədov, Müşfiq Məmmədli, Sədaqət Vəliyeva, Nizami Səfərov çıxış ediblər. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamının tələblərindən irəli gələrək hazırlanmış qanun layihələrini dəstəkləyən deputatlar sənədlərlə bağlı fikirlərini bildiriblər. Onlar qanun layihələrinin narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsinə xidmət etməsini təqdir ediblər, həmçinin Azərbaycanda narkotik vasitələri və psixotrop maddələri internet informasiya ehtiyatlarından istifadə etməklə satanların cinayət məsuliyyətinə cəlb edilməsini dövrün tələbi kimi qiymətləndiriblər.

Səhiyyə komitəsinin üzvləri Kamilə Əliyevanın, Kəmaləddin Qafarovun, Ülvi Quliyevin və Anatoliy Rafailovun da iştirak etdiyi iclasda deputatlar yekdilliklə qanun layihələrini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

# Azərbaycanın və Rusiyanın Baş prokurorluqları arasında ikitərəfli münasibətlər uğurla davam etdirilir

Azərbaycan Respublikası Baş Prokurorluğunun vəsatəti əsasında "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il 22 yanvar tarixli Konvensiyaya əsasən, Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən Azərbaycan Respublikasının vətəndaşı Murad Niftizadənin ekstradisiyası haqqında qərar qəbul olunub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabunçu Rayon Prokurorluğunda istintaq olunan cinayət işi üzrə Murad Niftizadənin 2019-cu il dekabrın 13-də Sabunçu rayonunun Bakıxanov qəsəbəsi ərazisində çoxmərtəbəli binada anası Fatma Həmzəyeva və bacısı Elgün Niftizadəni qəsdən öldürməsinə əsaslı şübhələr müəyyənləşdirildiyindən Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunub. O, cinayət təqibi orqanından gizləndiyinə görə barəsində beynəlxalq axtarış elan edilib.

Murad Niftizadə Rusiya ərazisində müəyyənləşdirilərək 2021-ci il oktyabrın 17-də həbs olunub. O, martın 10-da Rusiyadan Azərbaycana gətirilib.

# Milli Məclisin deputatları Dünya Bankının nümayəndələri ilə görüşüblər

Martın 10-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Dünya Bankının Orta Müddətli Xərcləmələr Çərçivəsinin Potensialın Gücləndirilməsi Proqramının tapşırıq qrupu ilə onlayn formatda görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbiri açan Dünya Bankının dövlət idarəçiliyi üzrə baş mütəxəssisi və tapşırıq qrupu rəhbəri İan Haukesvors bildirib ki, Dünya Bankı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə əməkdaşlıq çərçivəsində bu yaxınlarda Orta Müddətli Xərcləmələr Çərçivəsinin Potensialın Gücləndirilməsi Proqramına (OMXÇ PGP) başlayıb. İan Haukesvors proqramın istiqamətləri üzrə məsul olan xarici ekspertləri təqdim edib, proqramın xüsusiyyətləri barədə danışıb, missiyanın gündəliyi və işin təşkili barədə məlumat verib.

Onlayn görüşdə çıxış edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycanda "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"nın tətbiqi barədə məlumat verib, dayanıqlı fiskal siyasətin həyata keçirilməsindən, xərc istiqamətlərinin sektorlar arasında prioritetləşdirilməsindən bəhs edib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Vüqar Bayramov, Məzahir Əfəndiyev və Aydın Hüseynov Azərbaycanda dövlət büdcəsinin hazırlanması, büdcə prosesi, Milli Məclisdə büdcəyə baxılması və dəyişikliklərin edilməsi qaydası, büdcəyə nəzarət prosedurları kimi məsələlərdən söz açıblar.

Onlayn tədbirdə müzakirələr zamanı Dünya Bankı nümayəndələrinin sualları cavablandırılıb, fiskal institutların inkişafı, o cümlədən büdcə qaydaları, ortamüddətli xərclər çərçivəsi və nəticə əsaslı büdcənin tətbiqi kimi istiqamətlər üzrə qarşılıqlı fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən, bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2022-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov martın 10-da Ağsu şəhərində Ağsu, İsmayıllı, Şamaxı və Qobustan rayonlarından olan vətəndaşları fərdi qaydada qəbul edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov və Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov Ağsu Suvarma Sistemləri İdarəsinin inzibati binasında Ağsu, İsmayıllı, Şamaxı və Qobustan rayonlarından olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib. Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, suvarma kanallarının beton üzlüyə alınması, yeni subartezian quyularının qazılması, sel sularına qarşı mühafizə bəndlərinin tikilməsi, nov kanallarının qurulması, habelə cəmiyyətin səlahiyyətlərinə aid olmayan bir sıra məsələləri əhatə edib.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən ASC-nin sədri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb. ASC-nin səlahiyyətlərinə aid olmayan məsələlər isə aidiyyəti qurumlara göndəriləcək.

Vətəndaşlar, o cümlədən İsmayıllıdan Zahir Məhərrəmov, Ağsu rayonunun Şahbəyli kəndindən Eldar Yadigarov və digərləri bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



# İqtisadi və siyasi müstəqilliyin uğur formulu

## İlham Əliyevin milli maraqlara əsaslanan xarici diplomatiyası Azərbaycanı güclü, qüdrətli və istiqrarlı dövlətə çevirib

Müstəqilliyinin bərpasından ötən 31 ildə heç vaxt indiki kimi güclü, qüdrətli və istiqrarlı olmayan Azərbaycan bu gün dünya düzənində özünəməxsus yer tutan ölkələrdən biridir.

Bunun yeganə səbəbi isə Prezident İlham Əliyevin tam müstəqil siyasət yürütməsi, ölkənin iqtisadi qüdrətinin getdikcə daha da güclənməsidir.

Əgər dünyanın geosiyasi mənzərəsinə nəzər yetirsək görərik ki, bu 31 ildə Azərbaycanın əldə etdiyi uğurları inkişaf etməkdə olan ölkələrin əksəriyyəti bəlkə də heç 50 ildə qazana bilməyiblər.

### Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktoru

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatlarının olmasına baxmayaraq, əhalisinin enerjiyə tələbatını idxal hesabına ödəyən Azərbaycan cəmi 31 ilə güclü iqtisadiyyata, müstəqil siyasətə sahib qüdrətli dövlətə çevrildi. Dünya artıq müstəqil Azərbaycanı qlobal layihələr həyata keçirən, islahatlar aparan, regional əməkdaşlığa və enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş ölkə kimi qəbul edir.

Müstəqillik dövründə ölkə iqtisadiyyatına 300 milyard dollar investisiya qoyulması, xarici ölkələrə yatırımlar etməsi, valyuta ehtiyatlarını 53 milyard dollara yüksəltməsi hər ölkəyə nəsib olmayan möhtəşəm nailiyyətlərdir.

Prezident İlham Əliyevin milli maraqlara əsaslanan xarici siyasət kursu ölkəmizi strateji önəmi birmənalı etiraf olunan dövlətə çevirib. Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi mürəkkəb geosiyasi şəraitdə müstəqil siyasət həyata keçirən Azərbaycan son 18 ildə bütün istiqamətlər üzrə böyük uğurlar əldə edib.

Bu gün dünyada gedən ziddiyyətli geosiyasi proseslər, həmçinin qlobal pandemiya ilə mübarizə fonunda Azərbaycan həm sabitliyini təmin edir, həm də tam müstəqil xarici siyasət kursuna müvafiq olaraq beynəlxalq əlaqələrini daha da gücləndirir.

İkinci Qarabağ müharibəsindəki şanlı zəfərdən sonra regionda yaranan yeni reallıqlar və bölgədə diktənin Azərbaycana məxsus olması bir daha təsdiq edir ki, ölkəmiz Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktorudur.

Məhz bu siyasətin nəticəsidir ki, hazırda Azərbaycan beynəlxalq təşkilatlarda qətiyyətli və müstəqil söz sahibi kimi qəbul edilir. Buna misal kimi təkcə ölkəmizin 120 daimi üzvü olan Qoşulmama Hərəkatına sədrlik etməsini göstərmək yetərlidir. Bütün bu uğurlar İlham Əliyevin xarici diplomatiyasının təntənəsidir.

Azərbaycan Prezidentinin ən mötəbər tədbirlərə dəvət olunması, aparıcı dövlətlərin rəhbərləri, dünyada nüfuzlu ictimai-siyasi xadimlər və digər şəxslərlə görüşləri həm özünün, həm də ölkəmizin yüksək nüfuzunun göstəricisidir.

Onu da xüsusi olaraq vurğulamalıyıq ki, ötən il müstəqilliyimizin 30 illiyini qürur hissi ilə Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd etdik. Bu il isə beynəlxalq əlaqələrimizin qurulmasının 30 illiyini fəxarətlə qeyd edirik. Bu uğurları dəyərləndirərkən İlham Əliyev qətiyyətlə vurğulayır ki, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili, xarici siyasətini aparır, dostlarını özü seçir, heç kimə hesabat vermir. Son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı müstəqil yolundan döndərə bilmədi.

### Getdikcə daha da böyüyən tərəfdaşlıq

2022-ci il Azərbaycanın beynəlxalq əlaqələrinin 30-cu ildönümü kimi də tarixə yazılır. Müstəqilliyin bərpasından sonra Azərbaycan 1992-ci ildən başlayaraq dünyanın əksər dövlətləri ilə ikitərəfli, qarşılıqlı münasibətlər qurub, hətta onların əksəriyyəti ilə əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Həmçinin Azərbaycan beynəlxalq siyasi və iqtisadi təşkilatlarla da sıx qarşılıqlı əlaqələr yaradıb.

Son 30 ildə Azərbaycanın yaratdığı uğurlu diplomatik münasibətlər, beynəlxalq miqyasda sərgilədiyi qətiyyətli mövqe tərəfdaş dövlətlərin və beynəlxalq təşkilatların rəhbərlərinin Prezident İlham Əliyevə göndərdiyi məktublarda, telefon zəngləri zamanı səsləndirdikləri fikirlərdə də öz əksini tapır.

Təkcə ötən bir həftə ərzində dövlət başçısının ünvanına gələn məktublara, keçirdiyi görüşlərdə söylənən fikirlərə nəzər yetirsək görərik ki, dünya dövlətləri Azərbaycanla əməkdaşlığa necə yüksək önəm verir.

Bu gün Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümüdür. Bu münasibətlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonun Azərbaycan Prezidentinə ünvanladığı səmimi məktuba diqqət edək: "Martın 11-də Böyük Britaniya və Azərbaycan Respublikası diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəklər. Bu fürsətdən istifadə edərək Böyük Britaniyanın ölkələrimiz arasındakı əlaqələrə verdiyi əhəmiyyəti bir daha qeyd etmək istərdim. Son 30 il ərzində Böyük Britaniya və Azərbaycan Respublikası mühüm strateji tərəfdaşlığın inkişaf etdirilməsi üçün birgə çalışıblar. Mən çox şadam ki, Böyük Britaniya sərmayələrinin Azərbaycanın enerji sektoruna yatırıldığı ilk vaxtlardan etibarən bu əlaqələr genişlənib və çiçəklənib. İnvestisiya və ticarət artmaqda davam edir, təhsil və mədəni əlaqələrimiz son dərəcə sıxdır, biz iqlim dəyişikliyi və təmiz enerji, regional təhlükəsizlik, qadın və qızlara dəstək daxil olmaqla mühüm məsələlər üzrə getdikcə daha böyük dəyər qazanan əməkdaşlığa nail olmuşuq. Böyük Britaniya Azərbaycan Respublikasının sarsılmaz və dəstək verən tərəfdaşıdır və bundan sonra da olacaqdır".

Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan Prezidentinə məktubunda isə bildirilir ki, iki ölkədə də diplomatik münasibətlərinin qurulmasının 30 illiyini qeyd edirlər. Bu illər ərzində Fransa və Azərbaycan iqtisadi, mədəni və təhsil sahələrində tərəfdaşlığa əsaslanan, Fransa və Azərbaycan arasında dostluğun bünövrəsi sayılan Fransa-Azərbaycan Universiteti və Bakıdakı fransız liseyi kimi ümumi uğurlarla əlamətdar olan möhkəm əlaqələr qura bilmişlər. Fransa İnkişaf Agentliyi infrastruktur və kommunikasiya sahələrində layihələr həyata keçirməkdədir: "Prezident Heydər Əliyevin Prezident Fransua Mitteranla 1993-cü ildə imzaladığı dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə əsasında qurulan bu münasibətlər həm də mənim çox bağlı olduğum ən yüksək səviyyədə siyasi dialoqa əsaslanır. Azərbaycan Prezidenti kimi ilk səfərlərinizi Fransaya etdiyinizi unutmamışıq. Ümid edirəm ki, Azərbaycan öz müstəqilliyini, inkişafını və ölkələrimizin bağlı olduğu dünyəviliyi möhkəmləndirməyi bundan sonra da davam etdirəcəkdir".

İtaliyanın Nazirlər Şurasının Sədri Mario Draqi ilə Prezident İlham Əliyev arasındakı telefon danışığı zamanı münasibətlərin hər ötən il daha da genişləndiyini söyləyən Draqi bildirib ki, Azərbaycan və İtaliya arasında iqtisadi, ticarət və enerji sahələrində səmərəli əməkdaşlıq qurulub. Enerji sahəsində əməkdaşlıqda "Cənub qaz dəhlizi" və onun tərkib hissəsi olan Trans-Adriatik təbii qaz boru kəmərinin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, Azərbaycan İtaliyanın neft təchizatında birinci, qaz təchizatında isə üçüncü yer tutur. Tərəflər iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi məqsədilə yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlər mübadiləsinin davam etdirilməsinə razılıqlarını bildiriblər.

Martın 9-da Azərbaycan ilə İsrail arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi 600 minədək yəhudinin yaşadığı Los-Ancelesdə təntənəli şəkildə qeyd edilib. Mərasimdə çıxış edən Los-Ancelesdəki Valley Outreach Sinaqoqunun rəhbəri Ravvin Ron Li-Paz Azərbaycandakı dinlərarası tolerantlığın ona daim yüksək təsir bağışladığını vurğulayıb. O, Azərbaycan və İsrail arasında mövcud olan sıx əməkdaşlıq münasibətlərinin böyük gərginliklərin mövcud olduğu hazırkı dünyada əvəzsiz model olduğunu bildirib. ABŞ-ın və dünyanın ən nüfuzlu yəhudi təşkilatlarından olan, 400 min üzvə malik Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini Ravvin Abraham Kuper çıxış edərək ilk dəfə Azərbaycanda 1972-ci ildə olduğunu, hələ o zaman SSRİ-nin bir çox yerlərindən fərqli olaraq Azərbaycanda yəhudilərin hər hansı ayrı-seçkiliyə məruz qalmadan yaşadıqlarını, ölkəmizin tolerantlıq və multikulturalizm modelinin müstəqilliyin bərpasından sonra daha da gücləndiyini, bu sahədə Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin misilsiz xidmətlərinin böyük rol oynadığını diqqətə çatdırıb.

1991-ci il dekabrın 25-də Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən biri İran olub. 1992-ci il martın 12-də isə iki ölkə arasında tam diplomatik münasibətlər qurulub. İki ölkənin yüksəkrütbəli rəsmiləri arasında sıx əlaqələr, siyasi, hərbi və iqtisadi sahədə nümayəndə heyətlərinin çoxsaylı səfərləri və görüşləri bir tərəfdən əlaqələrin yüksək səviyyəsindən xəbər verirsə, digər tərəfdən də bütün bunlar, münasibətlərin və ikitərəfli əməkdaşlığın davam etdirilməsinə və genişləndirilməsinə güclü dəstəkdir. Bu gün İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı ikitərəfli əlaqələr indiyədək heç vaxt olmadığı qədər yüksək səviyyədədir. İqtisadiyyat, ticarət, sənaye, kənd təsərrüfatı, təhsil və turizm sahələrində müxtəlif istiqamətlərdə, o cümlədən bütün region üçün prinsipial əhəmiyyət kəsb edən "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə bağlı mövcud çoxsaylı ikitərəfli saziş və layihələr bu həqiqəti təsdiq edir.

Göründüyü kimi, Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil siyasət Azərbaycanı ən etibarlı tərəfdaşa çevirib. Məhz İlham Əliyevin prezidentliyi dövründə respublikamız zamanı qabaqlayan inkişaf tempi ilə dünyanı heyrətləndirə bilib. 2003-cü ildə xalqın böyük dəstəyi ilə hakimiyyət estafetini götürən İlham Əliyevin ötən illərdəki çoxşaxəli fəaliyyəti Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Avropada Azərbaycan qazına tələbat artır

## Yeni reallıqlar ölkəmizin geosiyasi və geoiqtisadi mövqeyini daha da gücləndirəcək



Cənubi Qafqazın lider dövləti sayılan müstəqil Azərbaycan enerji ehtiyatlarını dünya bazarına çıxarmaqla davamlı inkişaf üçün əhəmiyyətli bazis yaradıb, eyni zamanda beynəlxalq münasibətlərdə mühüm aktora çevrilib. Artıq Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı statusuna sahib olub.

Ötən il ölkəmiz "Cənub qaz dəhlizi"nin bir seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Türkiyə, Gürcüstan, İtaliya, Bolqarıstan və Avropa dövlətlərinə 19 milyard kubmetr təbii qaz ixrac edib. TAP layihəsinin tamamlanmasından sonra Azərbaycan Avropa ölkələrinə qaz ixracını daha da artırıb. Hazırda Azərbaycanın qaz ehtiyatı 2,6 trilyon kubmetrdir, amma bu ehtiyatı daha da artırmaq mümkündür.

### Enerji resurslarının etibarlı təchizatçısı

Bu gün Avropa İttifaqı ölkələrinin qaz idxalınının 40 faizini Rusiya qazı təşkil edir. Amma geosiyasi meydanda baş verən reallıqlar, yeni Rusiya-Ukrayna müharibəsi başlandıqdan sonra qonşu ölkəyə qarşı tətbiq olunan sanksiyalar nəticəsində Rusiya Avropa İttifaqına qaz ixracını dayandıra bilər. Həmçinin Avropa İttifaqı da Rusiyadan qaz idxalını məhdudlaşdırmağı planlaşdırdığını bəyan edir.

Təbii ki, Avropa İttifaqı Rusiyadan qaz idxalını azaltmaqla yanaşı digər ölkələrdən, o cümlədən Azərbaycandan mavi qaz idxalını artırmağı düşünür. Bu isə Azərbaycanın təbii qazının Avropada əhəmiyyətinin daha da artdığını, ölkəmizin region üçün enerji təhlükəsizliyi baxımından böyük rol oynadığını göstərir.

Fevralın 4-də Bakıda keçirilmiş "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında çıxış edən Prezident İlham Əliyev yeni mənbələrdən qaz üçün tələbatın artdığını bildirib. Dövlət başçısı qeyd edib ki, yeni bazarlarda Azərbaycan qazına ehtiyac var: "Biz hazırıq, çünki Azərbaycan həmişə beynəlxalq bazarlara enerji resurslarının etibarlı təchizatçısı olmuşdur. Azərbaycanın enerji siyasəti həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıb". Qaz alan ölkələrin bazarlarında Azərbaycan qazının payı ilə əlaqədar son məlumatlara da diqqət çəkən dövlət başçısı bu ölkələrin bəzilərinin qaz istehlakının 80 faizinin, digərlərinin isə 15-20 faizinin Azərbaycandan aldığını və bu göstəricilərin artdığını söyləyib. Eyni zamanda qeyd edib ki, Azərbaycan hasilatı artırmağı planlaşdırır.

### Azərbaycan enerji təhlükəsizliyinin formalaşmasına töhfə verir

Dövlət başçısı Azərbaycanın 2022-ci ildə keçən illə müqayisədə daha çox qaz ixrac edəcəyini və bunun üçün böyük potensial olduğunu vurğulayaraq Azərbaycanın qaz ehtiyatlarının daha da çox olacağına diqqət çəkib.

Son hadisələr isə onu deməyə əsas verir ki, Azərbaycan qazına tələbat getdikcə artacaq və bu da ölkəmizə əlavə iqtisadi və siyasi dividendlər qazandıracaq.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan regionda enerji təhlükəsizliyinin formalaşmasına töhfə verən ölkədir, eyni zamanda mavi qaz üzrə potensialı kifayət qədər böyükdür. Bu, Azərbaycanın regionda həm geosiyasi, həm də geoiqtisadi mövqeyinin gücləndirilməsi baxımından çox vacib hesab olunur. Bütövlükdə son proseslər ondan xəbər verir ki, Azərbaycanın regiondakı mövqeyi, sülhün və təhlükəsizliyin formalaşmasında töhfəsi daha da artır. Deputatın sözlərinə görə, "Cənub qaz dəhlizi" Avropanın, qonşu Türkiyə və Gürcüstanın enerji təhlükəsizliyinə töhfə verən layihədir: "Azərbaycan "Cənub qaz dəhlizi"nin reallaşmasında xüsusi mövqeyi olan ölkədir. Etiraf etmək lazımdır ki, bu kəmərin reallaşması birbaşa Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində mümkün olub. Bu dəhlizin ilkin smeta dəyəri 45 milyard dollara yaxın idi. Daha sonra bu rəqəm 35-38 milyard dollara qədər azaldıldı. Nəticədə, "Cənub qaz dəhlizi" reallaşdı".

Artıq 2020-ci ilin dekabrından etibarən Azərbaycan mavi qazını "Cənub qaz dəhlizi" vasitəsilə Avropa bazarına çıxarır. Vüqar Bayramov qeyd edir ki, Azərbaycan 2021-ci ildə bu dəhliz vasitəsilə 19 milyard kubmetr mavi qaz nəql edib. Onun 7 milyard kubmetri İtaliya, 8,5 milyard kubmetri Türkiyə, 1 milyard kubmetri Gürcüstan, qalanı isə Avropanın digər ölkələrinə, o cümlədən Yunanıstan və Bolqarıstana ixrac olunub. Azərbaycan bu dəhliz vasitəsilə daha çox təbii qazı qonşu ölkələrə və Avropa İttifaqına ixrac etmək niyyətindədir. Birinci mərhələdə Avropaya 10, ikinci mərhələdə isə 20 milyard kubmetr mavi qaz nəql olunacaq. Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə 31,5 milyard kubmetr mavi qazı Türkiyə, eləcə də digər Avropa ölkələrinə nəql edəcək.

### Azərbaycan region üçün yeni alternativ mənbədir

Bu il Azərbaycanın Avropaya qaz nəqlinin 10 milyard kubmetrə qədər artırılması əsas hədəflərdən biridir. İkinci mərhələdə bu həcm iki dəfə artırılacaq.

Deputat deyir ki, Azərbaycan Cənubi Avropa, eləcə də Mərkəzi, Şərqi Avropa ölkələrinə mavi qaz nəql edir. Ümumilikdə Avropada Azərbaycan təbii qazını almaq istəyən ölkələrin sayı artır. Bu baxımdan Azərbaycan qazına tələbin yüksəlməsi müşahidə olunur. Çünki Azərbaycan region üçün yeni alternativ mənbədir: "Hazırda Avropa İttifaqı idxal etdiyi mavi qazın 40 faizini Rusiyadan alır, Rusiyanın Avropanın neft idxalında payı isə 25 faizdir. Bu kontekstdə təbii ki, Azərbaycanın qaz ixracatında rolunun artacağı və regionun enerji təhlükəsizliyinə daha çox töhfə verəcəyi gözlənilir. Bu da Azərbaycanın enerji resurslarının payının və həcminin artması anlamına gəlir".

Deputat Avropa İttifaqı ölkələrinin alternativ olaraq Əlcəzair, Azərbaycan və digər ölkələrdən daha çox mavi qaz almağı düşündüyünü vurğulayır. O deyir ki, Türkmənistan və İrandan da təbii qazın alınması müzakirə edilir, amma daha yaxın perspektivdə Avropa İttifaqı Əlcəzair və Azərbaycandan daha çox qaz idxal etməklə enerji təhlükəsizliyinin gücləndirilməsinə çalışır.

### Qərb investorlarının Azərbaycana marağı artacaq

İqtisadçı ekspert Əkrəm Həsənov da qəzetimizə açıqlamasında deyib ki, mövcud vəziyyətdə Azərbaycanın dünyada, xüsusilə regionda həm geosiyasi, həm də geoiqtisadi rolu artmaq üzrədir. Bu da Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi siyasətə uyğundur.

Onun sözlərinə görə, hazırda Azərbaycanın qazına və neftinə qədim qitədə ehtiyac çoxdur: "Azərbaycanın Avropaya əlavə neft və qaz ixrac etmək üçün kifayət qədər potensialı var. İndiki vəziyyət - neftin qiymətinin artması bizə əlavə maliyyə imkanları verəcək. Qərb investorlarının Azərbaycanda müəyyən işlərə vəsait yatırmağa marağı da artacaq. Hazırda biz daxili istifadə üçün başqa ölkələrdən nefti və qazı daha ucuz qiymətə ala bilərik. Bununla yanaşı, öz qazımızı və neftimizi Qərbə sata bilərik. Bu, böyük üstünlükdür".

Əkrəm Həsənovun fikrincə, "Cənub qaz dəhlizi"nin rolu xeyli artacaq. Azərbaycanın neft və qazı Avropanın artan ehtiyacını tam ödəməyəcək. Qərbin İrana qarşı sanksiyaları yumşaldacağı ehtimal olunur. Bununla Avropa İrandan da qaz əldə edə biləcək. Hazırda İran Qərb üçün elə də təhlükəli görünmür. Ekspert bildirir ki, bu vəziyyət də Azərbaycanın xeyrinədir. İrana qarşı sanksiyalar yumşalarsa, İranla Azərbaycanın münasibəti daha da inkişaf edəcək. Baş verən hadisələr Azərbaycanın geosiyasi və geoiqtisadi, həmçinin enerji daşıyıcıları bazarında rolunu xeyli artıracaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İtaliya Baş nazirinin Prezident İlham Əliyevə zəng etməsi İtaliya mətbuatının diqqət mərkəzindədir

İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri İtaliya Respublikasının Nazirlər Şurasının Sədri Mario Draqinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng etməsi və telefon söhbəti vaxtı müzakirə olunmuş mövzulara geniş diqqət ayırıb.

AZƏRTAC xəbər verir ki, İtaliyanın aparıcı xəbər agentlikləri olan "ANSA", "Adnkronos", "Agenzia Nova", "AGI", "AISE", "La Presse", eləcə də "Insideover", "Notizie Geopolitiche", "Kmetro0", "Giornale Diplomatico", "Startmag", "Tusiaweb", "RTL", "Affari Italiani", "Borsa Italiana", "La Ragione", "La Sicilia", "Notizie Yahoo", "Informazione", "TFNews", "Alto Adige", "Radio Studio Due", "TV7", "Sasari Notizie", "Olbia Notizie", "Giornale Radio" və sair kimi mətbuat orqanlarında dərc olunmuş yazılarda İtaliya Respublikası Nazirlər Şurasının Mətbuat Xidmətinin və Azərbaycan Respublikası Prezidentinin Mətbuat Xidmətinin məlumatlarına əsasən martın 8-də Mario Draqinin Prezident İlham Əliyevə zəng etməsi, söhbət zamanı Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın daha da gücləndirilməsi, xüsusilə də enerji sahəsində əməkdaşlıq, Ukraynadakı böhranla bağlı vəziyyətə dair mövzuların müzakirə edildiyi qeyd olunub.

Məlumatlarda telefon söhbəti zamanı bu il Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu vurğulanıb. Bu müddət ərzində iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluq ifadə olunub. Habelə bildirilib ki, söhbət zamanı Azərbaycan və İtaliya arasında iqtisadi, ticarət və enerji sahələrində səmərəli əməkdaşlığın qurulduğu, enerji sahəsində əməkdaşlıqda "Cənub qaz dəhlizi"nin və onun tərkib hissəsi olan Trans-Adriatik təbii qaz boru kəmərinin əhəmiyyəti vurğulanıb, Azərbaycanın İtaliyanın neft təchizatında 1-ci, qaz təchizatında isə 3-cü yer tutduğu qeyd edilib. Yazılarda telefon danışığı zamanı mədəniyyət və təhsil sahələrində həyata keçirilən uğurlu əməkdaşlıq layihələrinin müzakirə olunduğu, bu xüsusda Bakıda İtaliya-Azərbaycan universitetinin yaradılmasının əhəmiyyətinin vurğulandığı, eləcə də tərəflərin iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi məqsədilə yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlər mübadiləsinin davam etdirilməsinə razılıqlarını bildirdikləri qeyd olunub. Məlumatlarda, eləcə də telefon söhbəti zamanı regional mövzular, o cümlədən Ukraynada cərəyan edən hadisələr ətrafında fikir mübadiləsinin aparıldığı bildirilib.

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Ağdam, Xocavənd və Füzuli rayonları istiqamətlərində yerləşən mövqeləri martın 10-u saat 09:50-dən 17:10-dək müxtəlif çaplı atıcı silahlardan istifadə edilməklə fasilələrlə atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz tərəfindən həmin istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.

Hazırda bu istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Azərbaycan-Böyük Britaniya əlaqələri yüksək səviyyədə, strateji tərəfdaşlıq zəminində inkişaf edir

### Dost ölkənin şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə də fəaliyyət göstərirlər

30 illik işğal dövründə erməni vandallarının Qarabağda və Şərqi Zəngəzurdakı şəhər və kəndlərimizdə çoxsaylı tarixi, mədəni, dini abidələri və tikililəri vəhşicəsinə dağıtdıqları, torpaqlarımızda əsl barbarlıq törətdikləri indi artıq bütün dünyaya bəllidir.

Prezident İlham Əliyev bütün səfərlərində, çıxışlarında, keçirdiyi görüşlərdə bunu bir daha deyir, xatırladır, vurğulayır. Ayrı-ayrı ölkələrin həmin ərazilərdə olan nümayəndə heyətləri, jurnalistləri, ən müxtəlif qurumlarının əməkdaşları o vəhşiliyin dəhşətli izlərini öz gözləri ilə görürlər.

Prezident İlham Əliyev bu il martın 9-da Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edərkən də bu, söhbətin əsas mövzularından olub. İndi Azərbaycan işğaldan azad edilmiş ərazilərində daxili imkanlar hesabına, dövlətimizin başçısının dediyi kimi, heç kəsdən bir manat belə istəmədən, kredit götürmədən genişmiqyaslı quruculuq prosesi həyata keçirir. Həmin ərazilərdə ilk növbədə infrastruktur yaradılır, yolların çəkilməsi, elektrik enerjisi təchizatı, minalardan təmizləmə istiqamətində intensiv iş aparılır. Qəbulda Baronessa Emma Nikolsona bu barədə ətraflı məlumat verildi.

Gerçəkləşdirdiyimiz çoxşaxəli layihələrdə dostlarımız bizi dəstəkləyirlər. Bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd olunur. Məlum olduğu kimi, bu münasibətlə Böyük Britaniyanın Baş naziri Boris Conson tərəfindən Prezidentimizə səmimi məktub ünvanlanıb. Dövlətimizin başçısı da Böyük Britaniyanın Baş nazirinə diplomatik münasibətlərimizin 30 illiyi münasibətilə səmimi məktub göndərib.

İki ölkə arasında əlaqələr yüksək səviyyədədir və strateji tərəfdaşlıq zəminində inkişaf edir. Prezident İlham Əliyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edərkən də bu ölkənin əsas ticarət tərəfdaşımız olduğunu vurğuladı. Belə ki, Böyük Britaniya iqtisadiyyatımıza ən böyük sərmayə qoyan ölkədir, iqtisadi, ticarət əlaqələrimiz getdikcə daha da genişlənir. Enerji sahəsində əməkdaşlıq uğurla davam edir və bu sahədə bp şirkətinin ölkəmizdəki uğurlu fəaliyyətini misal göstərmək kifayətdir.

Xatırladaq ki, bp Azərbaycanda "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" kimi nəhəng karbohidrogen yataqlarının işlənməsi, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihələrinin operatorudur. Şirkətin SOCAR-la birlikdə Xəzərin Azərbaycan sektorundakı bir sıra perspektiv strukturlarda apardığı geoloji-kəşfiyyat işləri müxtəlif mərhələlərdə davam edir. bp eləcə də TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Qaz Boru Kəməri) layihələrində sanballı iştirak payına malikdir.

bp-nin həyata keçirdiyi sosial investisiya proqramları da əsas layihələrin ayrılmaz hissəsi, uğuru kimi dəyərləndirilir. Sosial layihələrə təhsil proqramları, yerli icmalarda bacarıq və qabiliyyətlərin yaradılması vasitəsilə yeni imkanların açılması, icmalarda sosial infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinə çıxışın təmin edilməsi və təlimlərlə yerli müəssisələrə dəstək, mədəni irs və idmanın inkişafına dəstək, eləcə də hökumət qurumlarına texniki yardım daxildir. Təkcə 2021-ci ildə bp və onun əməliyyatçı olduğu layihələrdəki tərəfdaşları belə sosial investisiya proqramlarına Azərbaycanda 2,2 milyon dollardan artıq vəsait xərcləyiblər.

Bu gün Böyük Britaniya şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə də fəaliyyət göstərir, xüsusilə şəhərlərin planlaşdırılması, minalardan təmizləmə və digər sahələrdə uğurla çalışırlar. Prezident İlham Əliyev sözügedən qəbul zamanı ölkəmizin enerji siyasətində bərpaolunan enerjiyə xüsusi əhəmiyyət verildiyini qeyd edib. Dövlətimizin başçısı bp ilə neft-qaz sahəsindəki ənənəvi əməkdaşlığa əsaslanaraq bərpaolunan enerji sahəsində də əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Məlum olduğu kimi, işğaldan azad edilmiş bölgələrimiz 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Uzunmüddətli etibarlı tərəfdaşımız olan bp-nin bu sahəyə marağı təqdirəlayiqdir. Belə ki, Cəbrayıl rayonunda böyük bir günəş-elektrik stansiyasının tikintisi nəzərdə tutulub. Hazırda bununla əlaqədar bp şirkəti ilə danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı 240 meqavata bərabər olacaq.

Təsadüfi deyil ki, Baronessa Emma Nikolson ölkələrimiz arasında iqtisadi, ticarət, enerji sahələrində əməkdaşlıqdan danışarkən bu xüsusda bp-nin Azərbaycandakı fəaliyyətini və onun genişləndirilməsini də vurğuladı. O, bp ilə ölkəmizin bərpaolunan enerji sahəsində əməkdaşlığının inkişaf etdirilməsi məsələlərinə toxundu.

Qeyd edək ki, Prezident İlham Əliyev və Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət əlaqələrinin genişləndirilməsi, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi də aparıblar. Bu da əməkdaşlıq və tərəfdaşlığın davamlı olduğunu, daha da inkişaf edəcəyini təsdiqləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İlin əvvəlindən tətbiq olunan pensiya artımları üçün ayrılan əlavə illik vəsait 438 milyon manata çatıb

Ölkəmizdə davam edən sosial islahatlar çərçivəsində 2022-ci ilin əvvəlindən minimum pensiya 20 faiz artırılaraq 240 manata çatdırılıb. Həmçinin pensiyalar orta aylıq əməkhaqqı artımına uyğun indeksləşdirilərək artırılıb və pensiyaçılara bu il üzrə 200 manat maddi yardım (rüblərə bölünməklə) ayrılıb.

1,1 milyon pensiyaçını əhatə edən bu artım üçün dövlət büdcəsindən illik əlavə 352 mln. manat ayrılıb.

Eyni zamanda qulluq stajına görə əlavələr alan pensiyaçılara bu ilin əvvəlindən hər ay pensiyalarının 10 faizi məbləğində maddi yardım verilməsi nəzərdə tutulub. Bunun üçün də illik 86 milyon manat əlavə vəsait ayrılacaq.

Beləliklə, cari ilin əvvəlindən tətbiq olunan pensiya artımları üçün ayrılan əlavə illik vəsait 438 milyon manata çatıb.

Ümumilikdə yeni islahatlar paketi üzrə 2022-ci ildə əməkhaqqı, pensiya və digər sosial ödənişlərin artımı üçün ayrılan illik əlavə vəsait isə 2,1 mlrd. manatdır. Bu artımlar 3,4 milyon şəxsi əhatə edir.

## Azərbaycan və Qətər arasında KOB sahəsində əməkdaşlıq imkanları müzakirə olunub

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Qətərin ticarət və sənaye nazirinin müavini Sultan bin Rashid Al-Khater ilə görüşüb.



Görüşdə ölkələrimiz arasında KOB sahəsində əməkdaşlıq imkanlarına və KOB-lara dəstək sahəsində qarşılıqlı təcrübə mübadiləsinə dair müzakirələr aparılıb. Eyni zamanda agentliyin yerli biznes subyektləri ilə yanaşı, xarici iş adamlarına yerli tərəfdaşların tapılması və investisiya qoyuluşu sahəsində göstərdiyi dəstək və xidmətlər barədə məlumat verilib.

## Günəş panelləri olan ərazidə müxtəlif kənd təsərrüfatı bitkilərinin səpini aparılıb

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin və Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin tərəfdaşlığı ilə "Aqrovoltaika" layihəsi çərçivəsində "Azərbaycanda aqrovoltaika texnologiyasının istifadə perspektivləri" mövzusunda tədbir keçirilib.

Tədbir çərçivəsində Samux rayonunun Sarıqamış kəndində Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinə məxsus günəş panelləri olan ərazidə müxtəlif kənd təsərrüfatı bitkilərinin səpini həyata keçirilib. Kənd Təsərrüfatı Nazirliyi, beynəlxalq təşkilatların nümayəndələri, mütəxəssislər və fermerlərin iştirakı ilə səpin sahəsinə baxış keçirilib.

Tədbirdə qeyd olunub ki, bu texnologiyanın kənd təsərrüfatına yararlı torpaqları məhdud olan ölkələr üçün böyük əhəmiyyəti var. Aqrar İnnovasiya Mərkəzi tərəfindən sözügedən pilot layihənin əsas məqsədinin vahid sahədə alternativ enerji istehsalının, kənd təsərrüfatı bitkilərinin əkinindən və məhsul istehsalının təşkilindən ibarət olduğu bildirilib. Qeyd edək ki, günəş panelləri ilə əhatə olunmuş 3 hektarlıq ərazinin 1.2 hektarı panellər altında istifadəsiz qalmış əkinə yararlı torpaq sahəsidir. İlkin mərhələdə aqrotexniki qulluq işləri həyata keçirilmiş panellərarası sahədə noxud, soğan, mətbəx çuğunduru, yerkökü kimi tərəvəzlərin səpini həyata keçirilib. Sonrakı mərhələdə isə şəkər çuğunduru, pomidor, badımcan kimi bir sıra tərəvəz bitkilərinin əkini nəzərdə tutulur.

Layihə çərçivəsində qarşıya qoyulan məqsədə nail olunmasında Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik, Bitki Mühafizə və Texniki Bitkilər, Əkinçilik Elmi-Tədqiqat İnstitutlarının mütəxəssisləri yaxından iştirak ediblər.

## SOCAR üzrə təbii qaz ixracı 65 faiz artıb

Cari ilin yanvar-fevral ayları ərzində SOCAR üzrə təbii qaz ixracı 510,1 milyon kubmetr olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 65 faiz artım deməkdir.

AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın birinci vitse-prezidenti, şirkətin prezidenti vəzifəsini müvəqqəti icra edən Rövşən Nəcəf deyib.

Qeyd edək ki, 2021-ci ilin yanvar-fevral aylarında SOCAR üzrə təbii qaz ixracı 309,4 milyon kubmetr təşkil edib.

## DGK: "Nəzərdə tutulan büdcə öhdəliyi 126,28 faiz yerinə yetirilib"

Dövlət Gömrük Komitəsi 2022-ci ilin yanvar-fevral ayları üçün nəzərdə tutulan büdcə öhdəliyini 126,28 faiz yerinə yetirib.

Bu barədə komitənin sədri Səfər Mehdiyev deyib. O, bildirib ki, ilkin məlumata görə, 820,84 milyon manat vəsait dövlət büdcəsinə köçürülüb və bu da nəzərdə tutulan proqnozdan 170,84 milyon manat artıqdır.

## Bu ilin iki ayında 88,3 min pensiya, müavinət və təqaüd e-qaydada təyin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ilin əvvəlindən başlayaraq pensiyaların, sonralar müavinət və təqaüdlərin təyinatı elektron qaydada həyata keçirilir.

2022-ci ilin yanvar-fevral aylarında 88,3 min pensiya, müavinət, təqaüd təyinatı e-qaydada aparılıb. Onlardan 2,3 mini pensiya, 86 mini müavinət və təqaüd təyinatları olub.

Bununla da vətəndaşların həmin sosial təminat növlərinə hüquqları yarandığı halda müraciətlərinə və sənəd təqdim etmələrinə ehtiyac qalmadan, həmin sosial ödənişlər onlara proaktiv qaydada təyin edilib.

## Sulfat turşusu istehsalı müəssisəsində işlərin 85 faizi tamamlanıb

Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Azərsulfat" MMC-nin sulfat turşusu istehsalı müəssisəsində avadanlıqların quraşdırılması (montajı) işlərinə başlanılıb.



Müəssisənin investisiya dəyəri 6 milyon ABŞ dollarıdır, layihə üzrə indiyədək görülən işlərə artıq 5 milyon dollar sərmayə qoyulub və işlərin 85 faizi tamamlanıb.

Qeyd edək ki, "Azərsulfat" MMC-yə 2020-ci ilin iyul ayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib.

Sənaye müəssisəsi idxalın əvəzlənməsində və ixrac potensialının genişləndirilməsində əhəmiyyətli rol oynayacaqdır.

## İndi hədəf qurub-yaratmaqdır

### Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa işləri çoxşaxəlidir




Azərbaycanın 30 ilə yaxın işğal altında qalan doğma torpaqları ilə bağlı iki əsas hədəfi vardı. Birincisi, onları düşmən işğalından azad etməli idik. Qəhrəman əsgərlərimiz canı və qanı bahasına bu missiyanı yerinə yetirdilər. Növbəti hədəf isə düşmən tərəfindən viran edilən torpaqlarda bərpa-quruculuq işləri aparıb buradan didərgin düşən soydaşlarımızı doğma yerlərinə qaytarmaqdır.

Düşmən bizim bu yerlərə qayıtmağımıza sədd çəkmək üçün olmazın vəhşiliklər törədib. Təkcə insanlar tərəfindən tikilən yaşayış və sosial infrastruktur deyil, təbii sərvətlər də talan edilib və dağıdılıb. Döyüşlər başa çatan kimi Prezident İlham Əliyev bəyan etdi ki, bu yerləri yenidən qurub cənnətə çevirəcəyik.

Dövlət başçısı bu gün də hər vasitə ilə dünyaya çatdırır ki, işğaldan azad edilən ərazilər tezliklə bərpa olunacaq və azərbaycanlılar öz doğma yerlərinə qayıdacaq. Prezident İlham Əliyev TASS Agentliyində fevralın 23-də Rusiyanın aparıcı KİV rəhbərləri ilə görüşündə jurnalist Oleq Dobrodeyevin məcburi köçkünlərin geri qayıtması barədə sualını cavablandırarkən demişdir: "Minalanmış sahələrin xəritələri yekunda bizə təhvil verildi, lakin onların dəqiqliyi 25 faiz təşkil edir. Yəni əslində, yararsızdır. Bu, başlıca problemdir ki, niyə biz artıq indi insanları qaytara bilmirik. Buna baxmayaraq, biz indi pilot layihələri icra edirik, yəqin ki, bir neçə aydan sonra Zəngilan rayonunun kəndlərindən birində həyata keçiriləcək, ilk olaraq, təqribən 200 ailə artıq bu ilin yazında oraya qayıdacaq. Sadəcə müqayisə üçün deyim ki, biz Livan ərazisinə bərabər ərazini bərpa etməliyik. Həmin ərazidə heç nə yoxdur, yəni sözün əsl mənasında hər şey dağıdılıb. Ağdam şəhərində 30-40 min insan yaşayırdı, orada xarabalıqdan başqa heç nə yoxdur. Daşları daşıyıb aparıb, satıblar. Başdaşlarını sındırıb, aparıb və satıblar. Yəni misli görünməmiş, ağılasığmayan miqyasda vandallıq... Beləliklə, bizim qarşıda böyük işlərimiz var - su, işıq, qaz, yollar, minalar, evlər. Biz başlamışıq, biz ötən il 1 milyard 300 milyon dollar ayırmışıq, bu il isə eyni vəsaiti bərpa işlərinə ayırmışıq. Pilot layihələr icra olunur, lakin bu, vaxt aparacaq".

Dövlət başçısı işğaldan azad olunan ərazilərdə quruculuq-bərpa işlərinin davam etdirilməsində qərarlı olduğunu vurğuladı. Bildirdi ki, Ağdam, Füzuli, Şuşa şəhərlərinin tikintisinin baş planı hazırlanıb, digər şəhərlərinki isə yaxın vaxtlarda başa çatacaq. Burada bütün işlər plan üzrə yerinə yetiriləcək.

İşğaldan azad olunan ərazilərdə tələm-tələsik, necə gəldi tikinti işləri aparılmayacaq. Görüləcək işlərdə müasir dünya standartlarından istifadə olunacaq. Belə ki, burada "yaşıl enerji" prinsipi əsas götürüləcək. Qarabağ və Şərqi Zəngəzurun bütün ərazisi "yaşıl enerji" zonası və "ağıllı şəhərlər", "ağıllı kəndlər" konsepsiyası əsasında yenidən qurulacaq.

Dövlət başçısı bərpa-quruculuq işlərinin aparılmasına ermənilərin mane olmaq istəməsini də xüsusi vurğuladı. Bildirdi ki, müharibə qurtarandan bir il 3 ay ərzində minaların partlaması nəticəsində ölənlərin və əlil olanların sayı 200-dən çoxdur.

Bütün dünya 44 günlük Vətən müharibəsində Azərbaycan əsgərinin ildırım sürətli qələbəsinin şahidi oldu. İndi isə dünya Azərbaycan insanının viran qoyulan torpaqlarda aparılan eyni sürətlə bərpa-quruculuq işlərinə şahidlik edir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurun çətin dağlıq, qışda qarın qalınlığı 3-4 metrə çatan ərazilərində yollar inşa edilir, tunellər qazılır, elektrik xətləri çəkilir. Bu işlər bir an fasilə vermədən, böyük fədakarlıqla həyata keçirilir. İndiyədək dağlıq coğrafi məkanda yerləşən Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonlarının ərazilərində və Ermənistanla həmsərhəd bölgələrdə 700 kilometrə yaxın yol, o cümlədən Zəfər yolu çəkilmişdir. Paralel olaraq Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Horadiz-Ağbənd, Zəngilan-Qubadlı-Laçın yolu, həmçinin Laçın istiqamətində əlavə yollar da salınır.

Bununla yanaşı, sözügedən ərazilərdə elektrik enerjisi infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir. Ötən il Prezident İlham Əliyevin iştirakı ilə Laçındakı "Güləbird" Su-Elektrik Stansiyasının, "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su-elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olmuşdur. "Kəlbəcər-1" Kiçik Su-Elektrik stansiyasında işlər tamamlanmışdır. Bununla yanaşı, azad olunmuş ərazilərdə 110/35/10 kV-luq rəqəmsal yarımstansiya tikilmiş, "Şuşa", "Şükürbəyli", "Kəlbəcər", "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyaları istismara verilmişdir. Ağdamda iki yerdə inşa edilən 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyaları, o cümlədən "Qarabağ" Regional İdarəetmə Mərkəzi işə salınmışdır.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı ölkənin ümumi enerji sisteminə qoşulmaqla yanaşı, həm də tam rəqəmsallaşdırılmışdır. Belə ki, işğaldan azad edilən ərazilərdə IV Sənaye İnqilabına uyğun olaraq intellektual enerji sistemi konsepsiyası həyata keçirilməklə, müasir, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formalaşdırılmışdır. Bunun sayəsində istismara verilən yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, açılıb-qoşulma əməliyyatları, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması proqram təminatı vasitəsilə avtomatik həyata keçirilir.

Cari ildə də bu ərazilərdə enerji infrastrukturunun yaradılması işləri davam edəcək. Həmin yerlərdə 5 yeni su-elektrik stansiyası inşa ediləcək ki, bu da ümumi enerji potensialımızı daha da gücləndirəcək.

Məlum olduğu kimi, indi dünyada ətraf mühitə zərər verməyən bərpaolunan enerjidən istifadəyə böyük diqqət yetirilir. Azərbaycanın neft-qazla yanaşı, bu sahədə də potensialı yüksəkdir. Odur ki, dövlət tərəfindən Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual proqnoz hazırlanıb. Bu ərazilərdə bərpaolunan mənbələrin potensialının beynəlxalq qiymətləndirilməsi aparılıb və ilkin rəqəmlər ümidvericidir. Belə ki, burada külək enerjisinin potensialı 7200 meqavat, günəş enerjisinin isə 2000 meqavatdan çoxdur. Uzun illər ölkəmizdə neft-qaz sahəsində fəaliyyət göstərən bp şirkəti Cəbrayıl rayonunda 200 meqavatdan çox gücə malik bərpaolunan enerji mənbəyinin tikintisinə maraq göstərir.

Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulamışdır ki, bu torpaqlardan didərgin düşən insanlar çox əziyyət çəkib. Onlar yaxşı yaşamağa layiqdirlər. Bunun üçün onlara hər cür şərait yaradılacaq. Evlərindən heç nəyi götürə bilməyib canını qurtarmaq üçün köçkün həyatı yaşamağa məcbur olan insanlar hər cür sosial infrastruktura malik geniş evlərdə yaşamağı haqq edir. Dövlətin gördüyü quruculuq-abadlıq işləri sayəsində bu insanlar istəklərinə qovuşacaqlar. Biz tezliklə onların ağrı-acı ilə tərk etdikləri doğma yerlərə qürurla qayıtdıqlarının şahidi olacağıq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Teatrlarımız

# Bədii əsər, təbii oyun və peşəkarların səhnəsi

## Şuşa Dövlət Musiqili Dram Teatrının kollektivi "köhnə" tamaşalara yeni həyat bəxş edir




**Mədəniyyət və incəsənət tariximizi vərəqləsək, aydın olar ki, XIX əsrin sonu, iyirminci yüzilliyin əvvəllərində teatrın ən çox fəaliyyət göstərdiyi mərkəzlərdən biri Şuşa idi. 1938-ci ilin fevral ayında Şuşa Dövlət Kolxoz və Sovxoz Teatrı yaradılıb. 1943-cü ildə kollektivin adı dəyişidirilib: Şuşa Dövlət Musiqili Dram Teatrı olub və ona dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin adı verilib. Teatrda dram və komediyalarla yanaşı, opera və operettalar da oynanılıb.**

Təəssüf ki, teatr 1949-cu ilin əvvəllərində müəyyən səbəblərdən fəaliyyətini dayandırmağa məcbur olub. Lakin şuşalı həvəskarlar dram dərnəyində, daha sonralar Xalq teatrında səhnə fəaliyyətlərini davam etdiriblər.

Hələ 1848-ci ildə Şuşada iki böyük tamaşa: mərkəzi-teatr və sirk mövcud idi.

Azərbaycan səhnə sənətinə Yusif bəy Məlikhaqnəzərov, Ə.Haqverdiyev, Z.Hacıbəyov, S.S.Axundov, Ü.Hacıbəyov, F.Köçərli, B.Bədəlbəyov, S.Vəlibəyov, Cabbar Qaryağdıoğlu, Haşım bəy Vəzirov kimi dramaturq, bəstəkar, aktyor və təşkilatçılar bəxş etmiş Şuşa teatrı diqqəti daim cəlb edib.

1871-ci ildə Şuşadakı köhnə klub binası yenidən təmir edilərək istifadəyə verilib və burada yerli həvəskarlar tamaşalar göstərməyə başlayıblar.

Xatirələrə əsasən demək olar ki, 1890-cı il aprel ayının 22-də Şuşa Realnı Məktəbində keçirilmiş musiqi səhərciyi güclü təsirə malik olub.

1891-ci ildə Şuşada bəyzadə İ.Xandəmirov yeni teatr binası inşa etdirib. 1880-1900-cü illər arasında Şuşada yerli ziyalıların, xaricdə təhsil alan tələbələrin, müəllim və şagirdlərin iştirakı ilə M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli-şah", "Lənkəran xanının vəziri", "Xırs quldurbasan", Ə.Haqverdiyevin "Dağılan tifaq", N.Vəzirovun "Daldan atılan daş topuğa dəyər", "Ev tərbiyəsinin bir şəkli", R.Əfəndiyevin "Saqqalın kəraməti", H.Vəzirovun "Qocalıqda yorğalıq" və s. əsərlər tamaşaya qoyulub.

Şuşada ilk dəfə opera səpkisində "Məcnun Leylinin qəbri üstündə" səhnəciyi göstərilib. Cabbar Qaryağdıoğlu Məcnun rolunu oynayıb, gələcəyin dahi bəstəkarı Üzeyir bəy Hacıbəyli isə bu tamaşada xorda oxuyub.

1894-cü ilin yay aylarında xeyriyyə məqsədilə bir-birinin ardınca üç əsərin - "Hacı Qara", "Müsyo Jordan və Dərviş Məstəli şah", "Xırs quldurbasan" tamaşalarında oynayan Şuşanın gənc müəllimlərindən ibarət həvəskar artistləri Haşım bəy Vəzirovun "Evlənmək su içmək deyil" pyesinin tamaşasını göstərib, əldə etdikləri 500 manat gəliri sənət məktəbinə veriblər.

"Dağılan tifaq" faciəsinin Şuşadakı ilk tamaşasının ilk iştirakçılarından biri olan bəstəkar Zülfüqar Hacıbəyov danışırmış ki, Ə.Haqverdiyevə Şuşada "Şəbehkərdan" adı qoymuşdular. İlk Şərq konserti də Şuşada Ə.Haqverdiyevin rəhbərliyi ilə 1896-cı ilin yayında təşkil olunub.

Şuşa Dövlət Musiqili Dram Teatrının direktoru Əməkdar artist Yadigar Muradov mətbuata açıqlamasında bildirir ki, Şuşa Dövlət Musiqili Dram Teatrının fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 may 1990-cı il tarixli qərarı ilə Mədəniyyət Nazirliyi tərəfindən bərpa edilib. 1992-ci il mayın 8-də Şuşanın Ermənistan tərəfindən işğalı ilə əlaqədar teatr Bakıya köçməyə məcbur olub. Kollektiv 1992-2005-ci illər ərzində Gənc Tamaşaçılar Teatrının binasında məskunlaşıb. Sonralar paytaxtdakı "Savalan" kinoteatrının binasına köçürülüb. Bakıda ilk tamaşası 13 fevral 1993-cü ildə keçirilib ki, bu da Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" musiqili əsəri olub.

Yarandığı ilk gündən teatr öz repertuarını dünya dramaturgiyasının ən yaxşı nümunələri ilə yanaşı, klassik və müasir Azərbaycan ədəbiyyatı ilə də zənginləşdirib. Burada hazırlanan bir çox maraqlı tamaşa ilə kollektiv teatrsevərlərin dərin rəğbətini qazanıb. Əvvəllər "Mono tamaşalar", "Eksperimental tamaşalar", "Milli klassika və teatr", 2000-ci ildə "Festivallar festivalı" respublika teatr festivallarının iştirakçısı olub, 2002-ci ildə Üzeyir bəy Hacıbəylinin "Əyri oturaq, düz danışaq" tamaşasına görə "Qızıl dərviş" mükafatına layiq görülüb.

2021-ci ilin oktyabr ayının 9-da özünün 148-ci teatr mövsümünə start verən bu sənət ocağı uşaqlar üçün həmin gün X.Əlibəylinin "Dovşanın ad günü" tamaşasının premyerası, A.Məmmədovun "Dəli Domrul" ilə sevimli tamaşaçıların görüşünə gəlib. Həmçinin M.F.Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran", "Müsyö Jordan və Dərviş Məstəli şah", C.Məmmədquluzadənin "Anamın kitabı" da növbəti dəfə tamaşaçıların dərin rəğbətini qazanıb. Göstərilən tamaşaların sırasında C.Cabbarlının "Solğun çiçəklər", A.Şaiqin "Danışan gəlincik", Ağəddin Babayevin "Nağıllar aləmində", Şərq nağılları əsasında hazırlanmış "Əlibaba və qırx quldur" da olub.




Teatrın baş rejissoru Əməkdar artist Loğman Kərimov bildirir ki, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə ithaf olunmuş, Zəlimxan Yaqubun "Böyük ömrün dastanı" ədəbi-bədii kompozisiyasını bərpadan sonra yeni repertuarına əlavə edən kollektiv eyni zamanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin əzmkarlığı, Azərbaycan Ordusunun rəşadəti, "Dəmir yumruğ"u sayəsində əldə olunan şanlı qələbəmizin birinci ildönümü ilə əlaqədar "Qarabağ - Azərbaycandır!" adlı konsert proqramı ilə də tamaşaçı görüşünə gəlib.



Teatrın kollektivi "Şuşa ili"ndə daha böyük uğurlara imza atılacağına böyük ümidlər bəsləyir. Əlbəttə, taleyinə məcburi köçkünlük yazılan teatrların sırasında bu kollektivin də bəxtinə düşən çətinliklər, problemlər az olmayıb. Sənət aşiqlərinin toplaşdığı teatrın özünün yaşadıqları da sanki bir "tamaşadır".

Şuşaya dönəcəyi günü səbirsizliklə gözləyən bu kollektiv doğma yurdlarının azadlığa qovuşmasının sevincini bölüşməkdədir. Onların da Şuşanın əvvəlki növrağına qovuşacağına az qalıb...

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● Şuşa ziyalıları

# Ömrü təlatümlər içində keçən yazıçı



**Yaradıcılığının şah əsəri sayılan "Bəxtsiz cavan" pyesini 1900-cü ildə qələmə aldı. Əsərin qəhrəmanının - Fərhadın çəkdiyi iztirablar müəllifə tanış idi. Bu gənc Əbdürrəhim bəyə elə bənzəyirdi ki...**

O da ömrü boyu çox gördü ayrılıq əzablarını. Atası Əsəd bəyi itirəndə hələ üç yaşındaydı. Qəza idarəsində mütərcimlik edən atasının vaxtsız gedişi Şuşa şəhəri yaxınlığında, Ağbulaq kəndindəki mülklərini matəmə bürüdü. Anası Hüsnücahan xanım həyatlarını alt-üst edən dərddən çaşıb qalan iki kiçik övladını bağrına basaraq göz yaşı tökdü.

Əsəd bəyin böyük qardaşı Əbdülkərim bəyin sanki beli büküldü. Yalnız ataları Əbdürrəhim bəyin adını verdikləri qardaşı oğluna baxanda ovunurdu. Öz övladı yox idi. Əbdülkərim bəy qardaşı oğluna doğma balası, ümidi, təsəllisi kimi baxırdı. Çünki Qarabağda tanınan soyadlarını - Haqverdiyev soyadını onlardan sonra Əbdürrəhim bəy davam etdirəcəkdi.

Əsəd bəyin ilini verəndən sonra Hüsnücahan xanım gəlin gəldiyi evi tərk etdi. Qucağında körpə qızı Nabatla ağlaya-ağlaya gedir, tez-tez ayaq saxlayıb geri boylanırdı. Oğlu Əbdürrəhim bəyi ona verməmişdilər.

Əbdürrəhim bəy yetimliyin əsl üzünü anası gedəndən sonra gördü. Əmisinin yanında heç kim ona güldən ağır söz deyə bilmirdi. Əbdülkərim bəy qardaşı oğlunu əzizləyir, o, evdə olmayanda incidilib-incidilmədiyini xəbər alırdı. Əbdürrəhim bəy bilirdi ki, həqiqəti söyləsə, əmisi gedən kimi əmisi arvadıyla onun gətirib evində övladı kimi saxladığı qardaşı oğlundan daha çox zülm görəcək. Ona görə susurdu.

Əmisi evdən çıxanda Əbdürrəhim bəy də gözdən yayınır, xəlvət bir guşəyə çəkilirdi... O gün yenə intizarla yeganə havadarını gözləyirdi. Ancaq əmisinin əvəzinə onun qara xəbəri gəldi. Əbdülkərim bəyi qonşu bəylər qətlə yetirmişdilər.

O vaxtdan əmisinin evi onun üçün cəhənnəmə çevrildi. Uşağı hər gün döyürdülər. Bir gün onların əllərindən qurtulub ayaqyalın qaçdı. Özünü yetirdiyi evin qarşısında ayaq saxladı. Əbdürrəhim bəy ilk dəfə idi bura gəlirdi. Amma bu evdə anasının yaşadığını bilirdi. O, Əsəd bəyin vəfatından bir neçə il sonra Həsənəli bəy Sadıqbəyovla ailə qurmuşdu.

Hüsnücahan xanım neçə il həsrətini çəkdiyi balasına sarı yüyürdü. Ana-bala bir-birlərinə sarılıb ağladılar.

Atalığı Əbdürrəhim bəyi yaxşı qarşıladı. O, savadlı adam idi. Yeddi yaşlı Əbdürrəhim bəyin tərbiyəsi və təhsiliylə özü məşğul olmağa başladı. Ona rus dilində yazıb-oxumağı, danışmağı öyrətdi.

1980-ci ilin yayında Həsənəli bəy onu Şuşaya aparıb oradakı müvəqqəti yay məktəbinə qoydu. Sonralar böyük minnətdarlıqla xatırladığı Yusif bəy Məlikhaqnəzərovu da həmin məktəbdə tanıdı. Sentyabrda imtahan verib yeni açılmış realnı məktəbə daxil olduqdan sonra da tez-tez onun görüşünə gedirdi. Yusif bəy teatr həvəskarıydı. Yay aylarında Şuşaya toplaşan kənd müəllimlərinin iştirakı ilə hazırlanan tamaşalar əvvəlcə onun evində, sonra şəhər klubunda göstərilirdi. Başqa səhnə əsərləri olmadığından yalnız Mirzə Fətəli Axundzadənin pyesləri səhnələşdirilirdi.

Müəllimi Yusif bəyin sayəsində onda teatr sevgisi yarandı. 1884-cü ildə baxdığı Mirzə Fətəli Axundzadənin "Hekayəti xırs-quldurbasan" tamaşası çox xoşuna gəldi. Müəllifin əsərlərini oxudu və onun "Hekayəti mərdi-xəsis, yaxud Hacı Qara" adlı pyesinin təsiri ilə həmin məzmunda "Hacı Daşdəmir" adlı komediya yazdı. İlk əsərini müəlliminə verib, oxumasını xahiş etdi. Yusif bəy oxuduqdan sonra Əbdürrəhim bəyə zəif cəhətlərini elə dedi ki, onu daha da həvəsləndirdi. Amma hələ ki, axtarışda idi. Qələmə aldığı bir neçə "əsər" də bədii cəhətdən "Hacı Daşdəmir"dən fərqlənmədi.

1890-cı ildə Şuşa Realnı Məktəbini bitirdikdən sonra Tiflis şəhərinə yollandı. Tiflis Realnı Məktəbinin yeddinci sinfinə daxil oldu. Tiflisin teatr həyatına heyran oldu. Ədəbiyyatla ciddi məşğul olmağa başladı.

1891-ci ildə Tiflis Realnı Məktəbinin dilplomunu aldı. Elə həmin il ali təhsil almaq üçün Peterburq şəhərinə getdi. Yol Nəqliyyat Mühəndisləri İnstitutuna daxil oldu. Təqaüdə çıxmış generalın evində yaşayırdı. Generalın həyat yoldaşı Əbdürrəhim bəyə fransız dilini və musiqi alətlərində çalmağı öyrədirdi.

Peterburqda səkkiz il yaşadı. Həmin illərdə həm də azad müdavim kimi universitetin Şərq fakültəsində tanınmış müəllimlərin məruzələrini dinlədi, şəhərin ədəbi-mədəni, teatr mühitiylə maraqlandı.

Böyük həvəslə dünya klassiklərinin əsərlərini oxuyurdu. Düşündüklərini qələmlə anlatmaq arzusu getdkcə güclənirdi. 1892-ci ildə "Yeyərsən qaz ətini, görərsən ləzzətini", 26 yaşında - 1896-cı ildə "Dağılan tifaq" faciəsini yazdı. Hər iki əsər Peterburqda yaşadığı illərdə nəşr edildi.

"Dağılan tifaq" əsəri 1896-cı ildə müəllifinin rejissorluğu ilə Şuşa şəhərində səhnələşdirildi.

Şuşa teatr həvəskarları 1897-ci ilin avqustunda Əbdürrəhim bəyin rejissorluğu ilə "Məcnun Leylinin qəbri üstündə" adlı səhnəcik hazırladılar. Bu səhnəcik uzun illər Şuşa teatrsevərlərinin yaddaşından silinmədi. O tamaşanın şahidlərindən biri - bəstəkar Üzeyir bəy Hacıbəyli 1907-ci ildə "Leyli və Məcnun" operasını yazdı.

1899-cu ildə Şuşaya qayıdan Əbdürrəhim bəy iki il orada yaşadı. Qohumları ona Mamo bəyin qızı Tükəzban xanımla evlənməyi məsləhət görürdülər. Əbdürrəhim bəy məsləhətlə evlənmədi. Qızı gördü, sevdi. Aralarında xeyli yaş fərqi var idi. Amma Mamo bəy böyük hörmət bəslədiyi Əbdürrəhim bəylə qızının ailə qurmasına etiraz etmədi.

Bakıya köçdü. Bu şəhərin ədəbi mühiti Əbdürrəhim bəyi doğmalıqla qarşıladı. Ancaq 1904-cü il Şuşa şəhər idarəsinə üzv seçildiyindən doğma şəhərinə qayıtdı. 1906-cı ildə Gəncə quberniyasından Dövlət Dumasına nümayəndə göndərildi. Duma dağıldıqdan sonra dörd ay Peterburqda qaldı. Sonra Tiflisə getdi. Orada Cəlil Məmmədquluzadə ilə tanış oldu. Onun təklifi ilə "Molla Nəsrəddin" jurnalına felyetonlar yazmağa başladı.

1913-cü ildə Ağdama köçüb, üç il orada yaşadı. 1916-cı ildə Tiflisə döndü. 1918-ci ildə Borçalı qəzasına komissar göndərildi. 1918-ci ilin fevralında Bakıya göndərildi. Azərbaycan Xalq Cümhuiyyətinin nümayəndəsi sifəti ilə əvvəlcə Dağıstana, bir müddət sonra Ermənistana getdi.

Azərbaycanda sovet hakimiyyəti qurulanda, 1920-ci ildə onu hökumət teatrosuna komissar, sonra isə sənaye şöbəsinin müdiri təyin etdilər. Əbdürrəhim bəy həm də gözəl pedaqoq idi. Odur ki, Azərbaycan Dövlət Darülfününa dəvəti məmnuniyyətlə qəbul edib, müəllimliklə məşğul oldu.

...Övladları olmadığına görə Tükəzban xanım özünü günahkar bilirdi. Bir gün nə qədər ağır olsa da, ayrılıq qərarını verdi ki, Əbdürrəhim bəy yenidən ailə qurub uşaq sahibi olsun. Tükəzban xanım uzun illər yaşadı, Əbdürrəhim bəydən sonra ailə qurmadı.

Əbdürrəhim bəy isə tatar qızı Yevgeniya Osipovnayla evləndi. "Ceyran" deyə çağırdığı bu qadın həyatının son anlarınadək onun yanında oldu. Amma ikinci evlilikdən də Əbdürrəhim bəyin övladı olmadı...

O, əsilzadəydi. Səliqə-sahmanı, yaraşıqlı görkəmi ilə diqqətləri çəkirdi. Həyat ona çox ayrılıqlar, çox əzablar yaşatdı. Amma Əbdürrəhim bəyi sındıra bilmədi.

Əbdürrəhim bəy Haqverdiyevin 1870-ci il mayın 17-də Şuşada başlayan ömür yolu 1933-cü il dekabrın 11-də Bakıda son mənzilinə yetişdi...

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

● Sənət irsimizdən

# O dünyadan «salamlar»

Cəlil Məmmədquluzadənin 1909-cu ildə yazdığı dörd məclis və beş pərdədən ibarət "Ölülər" pyesinin ilk oxunuşu 1913-cü ildə Şuşada keçirilmişdi. Əsər təriflənmiş, böyük rəğbətlə qarşılanmışdı. Hətta onun mövhumat yuvası olan Şuşada səhnəyə qoyulmasının tezliyi qeyd edilmişdi. Lakin bununla belə əsərin ilk tamaşası 1916-cı il aprelin 29-da Bakıda, Tağıyev teatrında oldu və ilin ən böyük teatr hadisəsinə çevrildi. İsgəndər rolunda Mirzəağa Əliyev, Şeyx Nəsrullah rolunda Əliqulu Nəcəfov çıxış edirdi.



Yazırlar ki, ilk tamaşadan əvvəl İsgəndər obrazını oynamağa hazırlaşan Mirzəağa Əliyev eşidir ki, müəllif Kefli İsgəndər obrazını yaradarkən Paşa bəy Hacı Ələkbər bəy oğlu Sultanov adlı bir vəkili nəzərdə tutub. Bu soraqla Naxçıvana yollanır. Aktyor böyük səylə Paşa bəyin xarakteri, əxlaqı, rəftarı haqqında məlumat toplayır. Öyrənir ki, Paşa bəy Sultanov 1874-cü ildə Novorossiysk Universitetinin Hüquq fakültəsini bitirib. Rus, fars, türk dillərini və ədəbiyyatını mükəmməl bilir. Məhəmməd Tağı Sidqi ilə birlikdə 30 min sözdən ibarət rus-fars-Azərbaycan luğətini tərtib edib. Belə geniş biliyi və dünyagörüşü olan adam təbii ki, cəhalət içərisində ayıq başla yaşaya bilməzdi.



Nəhayət, 7 ildən sonra əsər oynanılır və çox böyük müvəffəqiyyət qazanır. Bakıda nəşr olunan "Açıq söz" qəzetinin 1 may 1916-cı il sayındakı "Ölülər" haqqında təəssürat məqaləsində deyilirdi: "Cümə günü Tağıyev teatrı bir ədəbiyyat bayramı keçirdi. Molla Nəsrəddinin əsəri - təhriri olan "Ölülər" draması tamaşa edilirdi". Məqalədə göstərilir ki, hər pərdənin arasında müəllif alqışlarla səhnəyə çağırılıb təbrik olunurdu. Mətbuat, ədəbiyyat, məktəb və səhnə işçiləri düzülüb müəllifi gurultulu alqışlarla tamaşaçıların qarşısına çıxmağa dəvət edirdilər. "Müəllif səhnəyə çıxanda bir alqış tufanı qopdu". "Açıq söz"ün müxbiri bu təntənədəki tamaşaçılara müraciətlə öz təəssüratlarını bildirmələrini xahiş edir. Onlar deyirdilər: "Şeyx Nəsrullahın ölüləri diriltməsi yalansa da, "Ölülər"in ölü fikirləri diriltməsinə şübhə ola bilməz".

Sultan Məcid Qənizadə yazırdı: "Ölülər" son komediyalarımız içində parlaq bir mövqe tutur. "Ölülər"də sənətkaranə bir dirilik, mahiranə bir incəlik var. "Ölülər" mühərrirində bəzən Qoqol ruhu yaşar". Hüseyn Cavid isə qeyd edirdi ki, artıq dərəcədə məharətlə yazılmış, məzmunu eynən həyatımızdan götürülmüş, ideyası inqilabi ruhlu olan bu drama müsəlman həyatında böyük rol oynayacaqdır. Nəcəf bəy Vəzirov isə "Ölülər"i "Molla Nəsrəddin" kimi, baltanı dibindən vuran bir pyes adlandırmışdı.

Həmidə Məmmədquluzadə (Cavanşir) personajların prototipləri haqqında yazırdı ki, Mirzə Cəlilin dediyinə görə, şeyxin ölüləri diriltməsi əhvalatı əsla uydurma deyil. Bir vaxtlar İrəvan quberniyasında belə bir hadisə baş vermişdi. Pyesin bütün tipləri Naxçıvan camaatından götürülmüşdür.

Həmidə Məmmədquluzadə (Cavanşir) daha sonra qeyd edirdi ki, atası "rus Əhməd" kimi çağırılan Əhməd bəy Cavanşirin bir dostu Ağcabədinin Hüsülü kəndindən olan İsgəndər Hacı Həsən oğlu yerli ruhaniləri vecinə almadan öz üzüm bağından şampanabənzər şərab çəkirmiş və buna görə də ona "Kefli İsgəndər" deyirlərmiş.

*"Azərbaycan"*

● Xəbər

# Lənkəran teatrında "Haqqın 44 günü" adlı tamaşaya ictimai baxış olub



Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi ilə əlaqədar olaraq Lənkəran Dövlət Dram Teatrında hazırlanmış "Haqqın 44 günü" adlı tamaşaya ictimai baxış keçirilib.

Vətən müharibəsində 44 gün ərzində qazanılmış böyük zəfərimizin qəhrəmanlıq dastanı kimi təqdim olunan bu səhnə əsərinə yerli ictimaiyyətin nümayəndələri ilə yanaşı, Qarabağ qaziləri də tamaşa etmişlər.

Teatrın baş rejissoru Anar Babalının sözlərinə görə, bu səhnə əsəri qısa müddətdə hazırlanaraq ərsəyə gətirilib: "Tamaşada birinci və ikinci Qarabağ müharibəsində baş verən hadisələr, xalqımızın igid oğullarının döyüşlərdə göstərdiyi şücaətlər obrazlı şəkildə əksini tapıb. Səhnə əsərində həmçinin müharibələrin xalqların taleyində, gündəlik həyat və məişətində yaratdığı çətinliklərdən, ağrı-acılardan da bəhs olunur".

Tamaşanın müəllifi və quruluşçu rejissoru Anar Babalı, quruluşçu rəssamı Adil Əsədli, musiqi tərtibatçısı Fərahim Fərəcovdur. Əsas rolları teatrın gənc aktyor və aktrisalarından Gülər Kərimova, Səyyad Əliyev, Emil Rzayev, Şəbnəm Hüseynova, Aysel Cahangirova, Amil İbrahimov, Teymur Hacızadə və Günel Abbasova ifa edirlər.

Tamaşadan sonra keçirilən müzakirələrdə Qarabağ qaziləri belə bir tamaşanın hazırlanmasından məmnun qaldıqlarını bildirərək yaradıcı kollektivə uğurlar diləmişlər.

Teatrın direktoru Tofiq Heydərovun sözlərinə görə, "Haqqın 44 günü" tamaşası "Şuşa ili" çərçivəsində respublikamızın bütün bölgələrində nümayiş etdiriləcək. 10 Mart Milli Teatr Günündə isə Lənkəran teatrının səhnəsində tamaşanın premyerası olacaq.

*Ağaddin BABAYEV, Lənkəran*

# 28-ci dünya çempionatı




## Bakıda start götürən akrobatika gimnastikası üzrə beynəlxalq yarışda 17 ölkədən 170 idmançı iştirak edir

Azərbaycan paytaxtı bir ənənə olaraq növbəti dəfə mötəbər beynəlxalq yarışlara evsahibliyi edir. Dünən Bakıda akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.















Açılış mərasimində çıxış edən Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov dünya çempionatının iştirakçılarını salamlayıb. O, bildirib ki, Azərbaycanda idman siyasəti dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Müstəqil Azərbaycan tarixində ölkəmiz, xüsusilə paytaxt Bakı idmanın müxtəlif növləri üzrə mötəbər yarışları təşkil etməsi ilə yadda qalıb. Gimnastika növləri üzrə yarışların keçirilməsi də artıq ənənəyə çevrilib.

"Ötən illər ərzində Bakı bədii gimnastika, aerobika və batut gimnastikası üzrə dünya çempionatlarına evsahibliyi edib. Bu gün (dünən-red.) isə akrobatika gimnastikası üzrə dünya çempionatına start verilir. Bu da Azərbaycan Gimnastika Federasiyasının beynəlxalq aləmdə fəal olmasından xəbər verir. Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevaya gimnastika növlərinin inkişafında görülən işlərə görə minnətdarlığımı bildirirəm", - deyə nazir qeyd edib.

Gənclər və idman naziri Beynəlxalq Gimnastika Federasiyasının (FIG) rəhbərliyinə və nümayəndələrinə, yerli təşkilat komitəsinin üzvlərinə, könüllülərə və əməyi olan hər kəsə çempionatın yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib.

FIG-in prezidenti Morinari Vatanabe akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatının Bakıda təşkil olunmasından məmnunluğunu ifadə edib: "Hazırkı vəziyyət heç də asan deyil. Son günlər dünyada baş verən ürəkağrıdan hadisələr və bundan əziyyət çəkən insanlara görə dərin təəssüf və kədər hissi keçirirəm. Ümid edirəm ki, bütün insanların sağlam və sülh şəraitində yaşayacağı gün tezliklə gələcək. Qlobal pandemiyanın hökm sürdüyü və müharibə ilə üzləşən bir qitədə dünya çempionatının keçirilməsi böyük məsuliyyətdir. Lakin seçim şansımız yoxdur və biz ciddi tədbirlərə riayət etməliyik. Bu, idmançılar və rəsmilər üçün daha çox təzyiqə səbəb olacaq. Lakin sizin dostluq və həmrəyliyimizi bütün dünyaya nümayiş etdirəcəyinizə inanıram".

Yerli təşkilat komitəsinə, könüllülərə və bu tədbirin həyata keçirilməsində əməyi olanlara göstərdikləri səylərə görə səmimi-qəlbdən minnətdarlığını bildirən M.Vatanabe iştirakçılara uğurlar arzulayıb və 28-ci dünya çempionatını açıq elan edib.

Dörd gün davam edəcək yarışda idmançılar qadın, kişi və qarışıq cütlükləri, eləcə də qadın və kişi qrupları proqramlarında balans, temp və qarışıq hərəkətlər üzrə çıxış edəcəklər.

Çempionatın birinci günündə qadın və kişi cütlüklər balans və temp hərəkətlərində təsnifat mərhələsində mübarizə aparacaqlar. Qadın qruplar temp, kişi qruplar isə balans hərəkətində güclərini sınayacaqlar. Qarışıq cütlüklər balans hərəkətində yarışacaqlar.

Kişi cütlüklərin yarışında ölkəmizi gənclər arasında Avropa çempionları Daniel Abbasov və Murad Rəfiyev təmsil edəcəklər.

Qarışıq cütlüklər tərkibində isə beynəlxalq turnirlərin qalibləri Sabir Ağayev və Mehriban Salamova, Avropa çempionatının gümüş və bürünc mükafatçıları Ağasif Rəhimov və Raziyə Seyidli mübarizə aparacaqlar.

Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz dünya çempionatının finalına yüksəlib. Temp hərəkətinin təsnifat mərhələsində idmançılarımızın çıxışı 26,600 xalla qiymətləndirilib.

Martın 12-də keçiriləcək final mərhələsində Azərbaycan ilə yanaşı, ABŞ, Qazaxıstan, Almaniya, Portuqaliya və İspaniya gimnastları medallar uğrunda mübarizə aparacaqlar.

Dünya çempionatında qadın cütlüklərin balans hərəkətində də finalçılar müəyyənləşib. Təsnifat mərhələsində uğurla çıxış edən Portuqaliya, Böyük Britaniya, Qazaxıstan, Macarıstan, ABŞ və Polşa cütlükləri sabah medallar uğrunda yarışacaqlar.

Günün ikinci yarısında təsnifat mərhələsinin yarışları davam edib. Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət cütlüyümüz balans hərəkətində 28,760 xalla birinci olub və finala vəsiqə qazanıb. Sabir Ağayev və Mehriban Salamovadan ibarət digər cütlüyümüz isə 26,890 xalla səkkizinci pillədə qərarlaşıb.

Martın 13-də təşkil olunacaq final mərhələsində Azərbaycan ilə yanaşı, Böyük Britaniya, Belçika, Almaniya, İsrail və Portuqaliya cütlükləri də qələbə uğrunda yarışacaqlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# İrəvanda səfalət hökm sürür

## Ermənistandakı sosial-iqtisadi böhranın dərinləşdiyini xarici bloqçular da etiraf edirlər

Ermənistanda sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, ölkədə yaşanan tənəzzül durmadan genişlənməkdədir. Bu vəziyyətdə sadə vətəndaşların rifah halı daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın daha da artmasına rəvac verir. İndi bu ölkədə insanlar gələcəklərinə nikbin yanaşmır və əvvəlki kimi Ermənistanı tərk etməyə çalışırlar.

Yerdə qalanların durumu isə olduqca acınacaqlıdır. Onlar böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa pul tapmaqda belə çətinlik çəkirlər. Məhz bunun nəticəsidir ki, Ermənistanda əhalinin böyük əksəriyyəti banklara borcludur. Bank faizləri isə kifayət qədər yüksəkdir.

Cari ilin ilk 3 ayının nəticələrinə görə, Ermənistanda makroiqtisadi, eyni zamanda sosial göstəricilərdə kəskin enişlər var. Ermənistanın rəsmi statistikasına görə, bu gün ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə isə bu göstərici hər 3 nəfərdən birinə aiddir. Sözügedən ölkənin rəsmi statistikasında hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır. Praktik olaraq, Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi vəziyyətinin kifayət qədər acınacaqlı olduğunu göstərir.

Ermənistanda aclıq və səfalət hökm sürür. Bu ölkə iqtisadi-sosial problemlər məngənəsində boğulur. Burada yaşayan insanlar isə çox bədbindirlər. Bu cür fikirləri İrəvanda gördüklərindən sonra bir çox xarici bloqçu öz "Yutub" səhifəsində paylaşıblar. Bu günlərdə bir qrup bloqçu Ermənistana səfər etmiş, əhalinin yaşam tərzi və problemləri ilə maraqlanmışdı. "Ermənistan ərazisinə daxil olduqda gördüklərim məni dəhşətə gətirmişdir" cümləsi ilə çəkilişinə başlayan almaniyalı Kristof Müller bildirir ki, ölkə məhvə doğru addımlayır. Kənd və şəhərlərdə demək olar ki, adam tapmaq problemdir. Sakinlərlə söhbət zamanı aydın oldu ki, ermənilər işsizlik səbəbindən ölkəni tərk edərək xaricə üz tuturlar. Bəzi ailələr isə birdəfəlik Ermənistandan çıxıb gediblər. Miqrasiya axınının qarşısını almaqda hökumət acizdir. Yeri gəlmişkən, ölkədəki ağır iqtisadi-sosial gərginliklə əlaqədar Ermənistanı tərk edənlərin sayı bu ilin ilk üç ayı ərzində 61 min nəfəri ötüb. Amma problem bununla bitmir. Vətəndaşların ən çox şikayət etdikləri digər məsələ isə məmur özbaşınalığı və rüşvətxorluqdur.

Bloqçu paylaşımında regionlardakı uşaq bağçaları və məktəblərin vəziyyətinə də toxunmuşdur. Binaların təmirsiz və baxımsız vəziyyətdə olduğunu qeyd edən bloqçu uşaq bağçalarında hətta körpələrin qida rasionuna belə fikir verilmədiyini nəzərə çatdırıb.

Paylaşımda həmçinin həbsxana işçilərinin məhkumları döyərək təhqir etməsi, onlara işgəncələrin verilməsi də qeyd olunub. Bloqçu əlavə edib: "Ölkədə təhsil və səhiyyə sahəsində də ciddi problemlər var. Bölgələrdə təhsil demək olar ki, yox səviyyəsindədir. Səhiyyə sahəsindən isə heç danışmağa dəyməz. Bir sözlə, Ermənistanın bölgələrində həyat demək olar ki, dayanıbdır".

ARF İqtisadi Araşdırmalar Bürosunun proqram koordinatoru Tadevos Avetisyan özünün təhlili məqaləsində yazıb ki, ölkədə statistik rəqəmlər vətəndaşların nəzərəçarpan hissəsinin minimum əməkhaqqı ilə işlədiyini göstərir. Həmçinin məlum olub ki, 2021-ci ildə minimum əməkhaqqı, həmçinin dövlət qulluqçularının maaşları artmayıb, minimum istehlak səbətinin adambaşına düşən aylıq dəyəri isə 21,7 faizə yaxın yüksəlib. O cümlədən 2021-ci ildə minimum aylıq əməkhaqqı 68 min dram (482,78 dram 1 ABŞ dollarıdır), adambaşına düşən minimum istehlak səbətinin aylıq dəyəri isə təxminən 73,4 min dram təşkil edib. Məqalədə qeyd edilib ki, 2022-ci ildə minimum əməkhaqqı, baza pensiyaları, bir il xidmət stajı, sosial müavinətlərin baza məbləği artmayacaq. Amma təkcə 2021-ci ildə istehlak qiymətlərində 7,2, ərzaq məhsullarının orta qiymətlərində 11,5, minimum istehlak səbətinin aylıq dəyərində təxminən 21,5 faiz artım var. 2021-ci ildə Ermənistan vətəndaşları COVID-19 pandemiyası səbəbindən kütləvi və əsassız iqtisadi məhdudiyyətlərə məruz qalıb. Eyni zamanda 2019-cu illə müqayisədə 2020-ci ildə yoxsulluğun orta səviyyəsi təxminən 0,6 faiz artıb və bu rəqəmlərin 2022-ci ildə də artacağı gözlənilir.

Görünən odur ki, bu il Ermənistan vətəndaşlarının yaşayışı ötənilkindən daha ağır olacaq. Bütün bunlar Ermənistanın bir dövlət olaraq sürətlə öz məhvinə doğru yaxınlaşdığını deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***









# Hərbi hissələrdə təlim-metodiki məşğələlər keçirilib

Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi hissələrdə komandir heyəti ilə ideoloji iş və mənəvi-psixoloji təminatın, eləcə də hüquq qaydaları və hərbi intizamın möhkəmləndirilməsi sahəsində işin səmərəliliyinin artırılması məqsədilə təlim-metodiki məşğələlər keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Bəkir Orucov Azərbaycan Ordusunda nizam-intizamın yüksəldilməsi sahəsində həyata keçirilən islahatlardan və bu sahədə ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin üzərinə düşən vəzifələrdən danışıb.

Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və baş verə biləcək neqativ halların qarşısının alınması məqsədilə profilaktik tədbirlərin effektivliyinin artırılması üçün metodiki tövsiyələr verilib. Keçirilən məşğələlərdə və aparılan müzakirələrdə komandir heyətinə ideoloji iş və mənəvi-psixoloji təminat sahəsində rəhbər sənədlərin hazırlanması, həmçinin onların icrası ilə bağlı nəzəri və praktiki köməklik göstərilib.

Təlim-metodiki məşğələlərdə Müdafiə Nazirliyinin müxtəlif idarə və hərbi hissələrinin zabitləri Azərbaycan Ordusunun döyüş qabiliyyətinə təsir edən mövzular ətrafında fikir mübadiləsi aparıblar.

# İşğaldan azad olunan ərazilərdə ilin əvvəlindən indiyədək 955 hektardan çox ərazi tam təmizlənib

Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri işğaldan azad olunan ərazilərimizin minalardan və partlamamış döyüş sursatından təmizlənməsi işlərini davam etdirir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar mühəndis-istehkam bölmələri tərəfindən minalardan və qar örtüyündən təmizlənir, dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir. Həmçinin əkin sahələrinin minalardan təmizlənməsi üzrə fəaliyyətlər icra olunur.

Minatəmizləmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Azad olunan ərazilərdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində 2022-ci ilin əvvəlindən bu günədək 955 hektardan artıq ərazi tam təmizlənib, 233 mina və partlamamış döyüş sursatı aşkar olunaraq məhv edilib.

Ümumilikdə işğaldan azad olunan ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 14 min 448 hektardan artıq ərazi tam təmizlənib, piyada əleyhinə 6092, tank əleyhinə 2159 mina və 9237 ədəd müxtəlif növ partlamamış hərbi sursat aşkarlanaraq məhv edilib. Azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkar olunaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.

# Azərbaycanlıların təxliyəsi üçün Moldovada əlaqələndirmə mərkəzi yaradılıb

Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkədən həmsərhəd dövlətlərə üz tutmuş Azərbaycan Respublikası vətəndaşları və onların digər ölkələrin vətəndaşları olan ailə üzvlərinin Azərbaycana təxliyə olunması istiqamətində davamlı tədbirlər görülür.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, indiyədək Rumıniyanın Buxarest və Yassi, Polşanın Katovitse şəhərlərinə 13 çarter reysi və çoxlu sayda avtobus reysləri təşkil olunub. Ümumilikdə 5000 nəfərdən çox vətəndaşımız və onların ailə üzvləri Azərbaycana təxliyə olunub.

Ukraynadan Moldovaya digər həmsərhəd ölkələrlə müqayisədə dəfələrlə çox sayda vətəndaşımızın keçməsi ilə əlaqədar olaraq təxliyə işlərinin sistemli və nizamlı şəkildə həyata keçirilməsi, habelə onlara yerində dəstək göstərilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin 17 nəfər əməkdaşından ibarət heyət martın 7-də Kişineu şəhərinə ezam olunub. Azərbaycanın Moldovadakı səfirliyi və qeyd olunan dövlət orqanlarının nümayəndələrindən ibarət yaradılmış müvəqqəti əlaqələndirmə mərkəzi işə başlayıb.

Əlaqələndirmə mərkəzi tərəfindən Ukraynadan sərhədi keçərək Moldovanın müxtəlif yerlərində toplanmış vətəndaşlarımızın siyahıları tərtib olunur. Onlarla səfirlikdə və yerlərdə görüşlər keçirilir, ehtiyacları qiymətləndirilir, tibbi və digər yardımların göstərilməsi təmin olunur, Vətənə qayıtmaq üçün sənədlər hazırlanır və çatışmayan səyahət sənədləri bərpa edilir, Azərbaycan dövləti tərəfindən göndərilən təxliyə çarter reysləri və avtobuslarla ölkəmizə yola salınması həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə növbəti belə əlaqələndirmə qərargahı Polşada yaradılacaq. Bu məqsədlə martın 9-da qeyd olunan qurumların nümayəndələrindən ibarət heyət Polşanın Varşava və Katovitse şəhərlərinə ezam olunub.

# Ukraynadakı yaxınlarınızla əlaqədə qalın

**"Azercell" Ukrayna istiqamətində tətbiq etdiyi pulsuz zəngləri martın 26-na qədər uzatdı**

"Azercell Telekom" MMC Ukraynada mövcud durumla əlaqədar Azərbaycandan bu istiqamətdə tətbiq etdiyi pulsuz zənglərin müddətini martın 26-na (26.03.2022-ci il tarixi daxil) qədər uzatdı.

Lider mobil operator 27 fevral 2022-ci il tarixdən etibarən hazırda Ukraynadakı Azərbaycan vətəndaşları, eləcə də vətəndaşlarımızın bu ölkədə yaşayan qohumları ilə kəsintisiz telefon əlaqəsini təmin etmək, onların çətin anlarında yaxınları ilə ünsiyyətinə dəstək olmaq məqsədilə bu təşəbbüslə çıxış edir.

"Azercell" bütün abunəçilərindən Ukrayna istiqamətində mobil rabitə xətlərində mümkün yüklənmə riskinin və pulsuz bağlantıdan sui-istifadə hallarının qarşısının alınması məqsədilə qeyd edilən güzəştli zəngləri 3 dəqiqə civarında saxlamağı xahiş edir.

Qeyd edək ki, "Azercell" daha öncə Ukraynada rominqdə olan abunəçilərin nömrələrinin balansını artıraraq 50 azn həcmində vəsait yükləyib. Balansartırma həm fakturalı, həm fakturasız xətt sistemlərinə aid bütün nömrələrə şamil olunub.




Şirkətin xidmət mərkəzləri 7/24 abunəçilərin xidmətindədir: Çağrı Mərkəzi (ümumi əlaqə nömrəsi *1111, fakturasız xətt abunəçiləri üçün (012) 490 49 49, fakturalı xətt abunəçiləri üçün (012) 490 52 52); Online Dəstək xidməti; "Kabinetim" tətbiqi: https://www.azercell.com/az/personal/digital-solutions/kabinetim.html vasitəsilə sizi maraqlandıran suallarla müraciət edə və ya lazımi məlumatı əldə edə bilərsiniz.

# Beynəlxalq aləm



## İstanbulda güclü qar səbəbindən Bosfor boğazı gəmi keçidləri üçün bağlanıb

Hidrometeoroloqlar tərəfindən Türkiyə üçün proqnozlaşdırılan güclü qar bu gün səhər saatlarından etibarən öz təsirini göstərməyə başlayıb. AZƏRTAC xəbər verir ki, İstanbulda yağan qar və görmə məsafəsinin azalması səbəbindən Bosfor boğazı gəmi keçidləri üçün bağlanıb.

Qabaqlayıcı tədbirlər çərçivəsində irihəcmli qoşqulu yük maşınlarının şəhərə daxil olması dayandırılıb. Silivri bölgəsində dayandırılan ağır tonnajlı avtomobillər dayanacaqlara yönəldilib.

Hava şəraitinin kəskin pisləşməsi səbəbindən "Türk Hava Yolları" tərəfindən İstanbul və Sabiha Gökçen hava limanlarına martın 10-na və 11-nə planlaşdırılan 418 reys ləğv edilib.

Ölkənin Daxili İşlər Nazirliyinin Təbii Fəlakət və Fövqəladə Hallar Agentliyi (AFAD) tərəfindən əhaliyə mümkün qədər evdən çıxmamaları ilə bağlı xəbərdarlıq edilib.

Qeyd edək ki, martın 10-dan 14-dək İstanbulda təlim-tədrisə müvəqqəti fasilə verilib. Bununla yanaşı, minimum heyət üzvü olması şərtilə təhlükəsizlik, səhiyyə və nəqliyyat xidmətləri istisna olmaqla, bütün dövlət müəssisələrinin işi bu günlər ərzində dayandırılıb.

Hidrometeoroloqlar yağıntılı hava şəraitinin martın 14-dək davam edəcəyini bildirir.

## Cənubi Koreyada prezident seçkisində məğlub olan hakim partiyanın rəhbərliyi istefa verib




Cənubi Koreyada hakim Demokrat Partiyasının rəhbərliyi kütləvi formada istefa verib.

AZƏRTAC yerli mediaya istinadla xəbər verir ki, partiyanın sədri Sonq Yunq-cil bu qərarın martın 9-da keçirilmiş prezident seçkisində Demokratik Partiyanın namizədi Li Cemyonqun əsas müxalif qüvvə olan Xalqın Gücü Partiyasından Yun Sok-yola məğlub olmasından sonra qəbul olunduğunu açıqlayıb.

"Biz xalqın səsvermədə ifadə etdiyi qərara hörmətlə yanaşırıq və nəticələri təvazökarlıqla qəbul edirik", - deyən hakim Demokrat Partiyasının sədri prezident seçkisində partiyasının məğlubiyyətində özünü cavabdeh bilərək istefa verdiyini deyib. O, partiya rəhbərliyində təmsil olunan digər şəxslərin də istefa qərarı verdiyini bildirib.

Sədr vəzifəsi üçün martın 25-də keçiriləcək seçkiyədək partiyanı fövqəladə komitə idarə edəcək.

Qeyd edək ki, Cənubi Koreyanın Milli Seçki Komissiyasının məlumatına əsasən, Xalqın Gücü Partiyasının namizədi Yun Sok-yol səsvermədə iştirak etmiş seçicilərin 48,56 faizinin səsini toplayaraq, ölkənin 20-ci Prezidenti seçilib. Hakim Demokrat Partiyasının namizədi Li Ce-myonq isə 47,83 faiz səs toplayıb.

## ABŞ-da benzinə görə vergini dayandırmağa çağırırlar

Amerika Birləşmiş Ştatlarında benzinin qiyməti rekord səviyyəyə çatıb. Getdikcə daha çox ştatın qubernatoru və qanunvericiləri benzinə görə vergini dayandırmağa çağırırlar, çünki Rusiyadan neft idxalının dayandırılması ilə əlaqədar qiymətlər artmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, inflyasiyanın aradan qaldırılmasından ötrü benzin vergisinin ləğv edilməsi barədə təkliflər Konqresdə və ştatların paytaxtlarında hələ Ukraynada münaqişə başlanmazdan əvvəl irəli sürülmüşdü. Lakin bu həftə bu proses qiymətlərin artımı fonunda sürətlənib, çərşənbə günü 1 qallon benzinin qiyməti orta hesabla 4,25 dollar təşkil edib.

Çərşənbə günü Miçiqan və Pensilvaniyanın qanunvericilik orqanlarının respublikaçı liderləri bu ştatlarda benzin vergisini dayandırmaq və ya azaltmaq təkliflərini elan ediblər. Bu, Corciyanın Respublikaçılar Partiyasından və Kaliforniyanın Demokratlar Partiyasından olan qubernatorların Prezident Co Bayden tərəfindən çərşənbə axşamı Rusiya neftinin idxalına qadağanı tətbiq etdikdən sonra ştatların benzinin vergidən azad edilməsinə çağırışından sonra baş verib.




Eyni zamanda Kolorado, Miçiqan, Minnesota, Nyu Meksiko, Pensilvaniya və Viskonsin ştatlarının Demokratlar Partiyasından olan qubernatorları Konqres liderlərinə ünvanladıqları birgə məktubda 2022-ci ilin sonunadək 1 qallon benzin üçün 18,4 sent həcmində federal verginin qüvvədə olmasını dayandıran qanunu dəstəkləməyə çağırıblar.

Lakin bu çağırışlarla heç də hamı razı deyil. Tənqidçilər hesab edirlər ki, qənaət edilən vəsaitin istehlakçıların xeyrinə sərf ediləcəyinə heç bir zəmanət yoxdur. Onlar ehtiyat edirlər ki, benzin vergisinin ləğvi ölkədə yeni yolların tikintisinin və mövcud olanların təmirinin maliyyələşdirilməsinə zərər vura bilər. Bununla yanaşı, yanacaqdoldurma stansiyalarında yüksək qiymətlər qanunvericiləri mümkün qədər tez hərəkətə keçməyə məcbur edir, çünki ölkə sakinləri arasında narazılıqlar getdikcə artır.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

"Dənizçi" MTK-nın 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarından 1 C (pilləkən və meydançaya mərmərin vurulması) və 2A (9-16, texniki mərtəbə) binasının daxili təmir işlərinin (mal-material və işçi heyəti ilə) satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

***Tender komissiyası***


## DÜZƏLİŞ

"Azərişıq" ASC-nin Ağdam şəhərinin ilkin mərhələdə elektrik təchizatının təmin olunması məqsədilə 2 (iki) ədəd (TM №1 və TM №2) 35/0,4 kV-luq 4x2500 kVA gücündə transformator məntəqəsinin tikintisi, avadanlıqların quraşdırılması və 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması ilə bağlı "Azərbaycan" qəzetinin 10.03.2022-ci il tarixli sayında dərc olunmuş təkliflər sorğusu elanında təkliflərin təqdim edilməsi 31.03.2022-ci il saat 12:00-a kimi, zərflərin açılışı isə 01.04.2022-ci il saat 12:00-a kimi oxunmalıdır.

***Tender komissiyası***

## DÜZƏLİŞ

"Azərişıq" ASC-nin Zəngilan rayonu ərazisində "ağıllı kənd" layihəsi əsasında yenidənqurma işləri aparılmış Ağalı kəndinin (Birinci Ağalı, İkinci Ağalı və Üçüncü Ağalı kəndləri ilə birlikdə) ("ağıllı kənd") xarici elektrik təchizatı məqsədilə 35 kV-luq iki dövrəli ÖİN kabel xəttinin çəkilməsi işlərinin satın alınması ilə bağlı "Azərbaycan" qəzetinin 10.03.2022-ci il tarixli sayında dərc olunmuş təkliflər sorğusu elanında təkliflərin təqdim edilməsi 31.03.2022-ci il saat 15:00-a kimi, zərflərin açılışı isə 01.04.2022-ci il saat 15:00-a kimi oxunmalıdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, komitə sədrinin müavini Rəşad Mahmudov və komitə üzvləri Kamilə Əliyeva, Kəmaləddin Qafarov, Ülvi Quliyev, Müşfiq Məmmədli, İlham Məmmədov, Soltan Məmmədov, Anatoliy Rafailov, Sədaqət Vəliyeva və Milli Məclis Aparatının əməkdaşları Nigar Qurbanova və Zaur Adıgözəlov Milli Məclisin Səhiyyə komitəsinin üzvü Məlahət İbrahimqızına anası

**VƏZİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyevə atası

**ZƏHMƏT ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Paşa Bank" ASC-nin İdarə Heyətinin sədri Taleh Kazımova atası

**TAHİR KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə Nazirliyi Penitensiar xidmətinin rəis müavini Məhərrəm Qafarov Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Şaiq Əsgərova qardaşı

**ELMAN ƏSGƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Texniki şöbənin sektor müdiri

**MEHMAN HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Elmira Süleymanova Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5683
Sifariş 692
Qiyməti 40 qəpik